*Bağışlayan və Mehriban Allahın adı ilə*

# Həyat Tərzi

*İmam Rzanın(ə) Həyat Tərzi*

## İmam Rza əleyhis-salamın həyata baxışı


**Məhəmmədbaqir Purəmini**

Tərcüməçi: **Emin Hacıyev**



**Astan Qüds Rəzəvinin**
**dini suallara cavab şöbəsi**

سرشناسه: پورامینی، محمدباقر، ۱۳۴۷ -
Pouramini, Mohammad Bagher
عنوان قراردادی: سبک زندگی (منشور زندگی در منظر امام رضا علیه‌السلام). ترکی
عنوان و نام پدیدآور: Həyat tərzi: İmam Rza əleyhis-salamın həyata baxışı/ Məhəmmədbaqir Purəmini; tərcüməçi Emin Hacıyev.
مشخصات نشر: Mashhad: Islamic Research foundation, 2017= 1395.
مشخصات ظاهری: ۹۶ ص.
شابک: 978-600-06-0138-6
وضعیت فهرست نویسی: فیپا
یادداشت: ترکی آذری.
موضوع: علی‌بن موسی (ع)، امام هشتم، ۱۵۳؟ - ۲۰۳ق. -- پرسش‌ها و پاسخ‌ها
موضوع: Ali ibn Musa, Imam VIII -- Questions and answers
موضوع: علی‌بن موسی (ع)، امام هشتم، ۱۵۳؟ - ۲۰۳ق. -- فضایل
موضوع: Ali ibn Musa, Imam VIII -- Virtues
شناسه افزوده: حاجی‌زاده، امین، مترجم
شناسه افزوده: Emin, Haciyev
شناسه افزوده: آستان قدس رضوی. مدیریت زائرین غیرایرانی
شناسه افزوده: Astan Qods Razai. The Management of Foreign Pilgrims
شناسه افزوده: بنیاد پژوهشهای اسلامی
شناسه افزوده: Islamic Research foundation
رده‌بندی کنگره: BP۴۷/۳۵/پ۹س ۲۰۴۵ ۱۳۹۵
رده‌بندی دیویی: ۲۹۷/۹۵۷
شماره کتابشناسی ملی: ۴۵۵۵۵۲۱

Kitabın adı: Həyat tərzi: İmam Rza əleyhis-salamın həyata baxışı
Müəllif: Məhəmmədbaqir Purəmini
Tərcüməçi: Emin Hacıyev
Hazırlayan: Astan Qüds Rəzəvinin dini suallara cavab şöbəsi
Birinci çap: 2018
Nəşr: Qüds Rəzəvi nəşriyyətı
Qiemət: 50000 riyal
Tiraj: 5000 nüsxə
Ünvan: Məşhəd, imam Rzanın (ə) müqəddəs hərəmi, dini sualların cavabı idarəsi, telefon: 051-32235312, 051-32240602

www.islamic-rf.ir info@islamic-rf.ir

# Mündəricat

**Müqəddimə** 5

**Həyat Tərzi**

Ön Söz 13

Giriş 14

**Birinci Fəsil: Ideal həyat tərzi**

Həyat tərzi anlayışı 15

Sirə ilə həyat tərzinin əlaqəsi 16

Sirəyə tabe olma 18

Örnəklərin həyatdakı qurucu rolu 19

**İkinci fəsil: Allahla rabitə**

Təqva və bəndəlik 25

Namazın mədəniyyəti 26

Namazın hikməti 26

Namazın keyfiyyəti 27

Namazın ilk vaxtı 29

Səcdə 30

Camaat namazı 31

Dəstəmazın səbəbi 32

Oruc və Razaman 34

Həccin hikmət və mədəniyyəti 36

Quranla ünsiyyət 37

Quranın gündəlik oxunması 38

Gecə namazının cazibəsi 39

Cəfəri-Təyyar namazı 40

Duanın təsiri 42

Dəyərləndirmə meyarı 42

Sabahın fikrində olmaq 43

Günah etməmək 45

Salavat 47

Şükür etmə 48

Mötəbər zikrlər 50

## Üçüncü fəsil: Özünə qarşı münasibət


Şəxsiyyətin önəmliyi 55
Şer: 55
Təfəkkür 56
Ağıl sahibin nişanələri 58
Təvəkkül 58
Elm öyrənmək 60
Dini anlayış 61
Səbir 61
Məşvərət 62
Özünü hesaba çəkmək 63
Rəzil sifətlərdən qorunmaq 64
Həyatın şirin və acı anları 65
İş və zəhmət 66
Xərcdə israfa yol verməmək 67
Səliqə 68
Təmizlik və paklıq 69
Əylənmək 70
Səyahət və səfər 71
Yatmaq və yuxu yozumu 73
Münasib mənzil 74
Sadə həyat tərzi 75
Geyim 76
Yeyib-içmək 77


## Dördüncü fəsil: İnsanlara münasibət


Gözəl rəftar 79
Xeyriyyəçilik və yardım 81
Yaxşılarla, pislər 83
İnsanların hüququ 84
Zarafat və şadlıq 85
Xəstəni ziyarət 86
Valideynlərə münasibət 87
Həyat yoldaşını seçmək 88
Həyat yoldaşı ilə davranış 89
Ailə ilə davranış 90
Övladla davranış 91
Məmurlarla davranış 92
Kollektiv həyat nizamnaməsi 93
Mənbələr 95

# Müqəddimə

بسم الله الرحمن الرحيم

عَنْ عَبْدِ السَّلَامِ الْهَرَوِيِّ عَنِ الرِّضَا عليه السلام قَالَ: رَحِمَ اللهُ عَبْداً أَحْيَا أَمْرَنَا قُلْتُ كَيْفَ يُحْيِي أَمْرَكُمْ قَالَ يَتَعَلَّمُ عُلُومَنَا وَ يُعَلِّمُهَا النَّاسَ فَإِنَّ النَّاسَ لَوْ عَلِمُوا مَحَاسِنَ كَلَامِنَا لَاتَّبَعُونَا.

(عيون اخبار الرضا ، ج ١، ص ٣٠٧)

**Əbdussalam ibn Saleh Hərəvi belə deyir:**

İmam Rzanın (ə) qulluğunda idim, onun belə buyurduğunu eşitdim: Allah Bizim əmrimizi (imaməti) dirçəldənə öz rəhmətini yağdırsın. Soruşdum ki, sizin əmriniz necə dirçəlir? İmam isə buyurdu: Bizim elmlərimizi öyrənib başqalarına öyrətməklə, çünki əgər insanlar kəlamlarımızın nə kimi gözəllikləri olduğunu bilsələr, bizə tabe olarlar.

***(Uyun əxbar ər-Riza (ə) c. 1, səh. 307)***

Allah-taalanın böyük nemətlərindən biri də məsum Rəhbərləri (ə) bizim aramızda qərar verməsidir. Bizə nümunə olaraq onların həyat tərzi, Allaha qarşı ibadətləri və öyüd-nəsihətləri bizi əbədi səadətə qovuşdurur. Məşhəd torpağı peyğəmbər övladının dəfn olunduğu, habelə cənnətin bir parçasıdır. Bu torpaqda imamət səmasının səkkizinci ulduzunun məzarı yerləşir. Hər il İmama məftun olan milyonlarla İranlı və xarici ziyarətçilər bu məkana axışaraq susuz ruhlarını Əhli-Beytin zülal maarifi ilə sirab edirlər.

Müqəddəs Rəzəvi Astanasının xidmətçilərinin hər biri İmam Rza (ə) zəvvarlarına ziyarətdən daha çox faydalana bilmələri məqsədilə onların rahatlıq və aramlığı üçün xidmət göstərməkdədirlər. "Müqəddəs Rəzəvi Astanasının Xarici Zəvvarlar İdarəsi"də öz növbəsində əlindən gələn bütün xidmətlərini İmam Rza (ə) ziyarətçilərinə göstərir, Əhli-Beytin (ə) xüsusən İmam Rzanın (ə) həyatındakı davranış və əxlaq mədəniyyətini bütün rzasevərlərə və şiələrə aşılayır. Müdiriyyətin göstərdiyi təşəbbüs xarici zəvvarların bəsirəti və mənəvi inkişafı artırmaq məqsədilə İran İslam Respublikasının Ali dini liderinin nəsihətləri, Astan Qüdsi Rəzəvinin rəhbərliyinin göstərişləri və habelə Astan Qüdsi Rəzəvinin 20 illik iş təcrübəsi İslam mədəniyyətinin yayılması üzərində qurulmuşdur.

İdarənin İmam Rza (ə) zəvvarlarına qarşı beynəlxalq sahədə göstərdiyi xidmət növləri aşağıdakılardan ibarətdir:

-Mədəni proqramların təşkil edilməsi;

-Maarifləndirici yığıncaqlar;

-Peşəkar görüşlərin baş tutması;

-Elmi konfrans və seminarların həyata keçirilməsi;

-Mədəni müsabiqələr;

-Şer gecələrinin təşkili;

-İslamı qəbul etmə mərasimi;

-Dini ekspertlərlə görüşlər;

-Göndərilən məktubların cavablandırılması;

-Kitab və bu kimi digər mədəni məhsulların xarici ölkələrə göndərilməsi;

-Dini məsələlərə dair sual-cavablar;

-İnternet şəbəkəsi olan “Rəzəvi talk”da dialoqların keçirilməsi;

-Müxtəlif dillərdə İslam maarifinə dair ədəbiyyatların yazılması və onların tərcümə edilməsi.

Bu gün İslamın çağırışı dünyanın hər bir guşəsinə çatıb. Bu çağırış özlərindən uzaq düşmüş insanları həqiqətə doğru yenidən qaytara bilər. Hazırda haqpərəst insanların qəlbləri İslama, onun təqdim etdiyi dəyərlər və insan tərbiyəsi metoduna üz tutub artmaqdadır. Bu kitabın həqiqət axtarışına olan kimsələrə faydalı olmasını, zəvvarların və Əhli-Beyt (ə) aşiqlərinin mərifət çırağını aydınlatmasını və Allah-taalanın razılığına səbəb olmasını ümid edirik.

اَللّٰهُمَّ صَلِّ عَلى مُحَمَّدٍ وَالِ مُحَمَّدٍ، وَ مَتِّعْنى بِهُدًى صالح لا اَسْتَبْدِلُ بِهِ، وَ طَريقَةِ حَقٍّ لا اَزيغُ عَنْها، وَنِيَّةِ رُشْدٍ لااَشُكُّ فيها، وَ عَمِّرْنى ما كانَ عُمْرى بِذْلَةً فى طاعَتِكَ.

Allahım, Məhəmməd və onun Ailəsinə öz rəhmətini yağdır! Məni elə düzgün bir hidayətlə bəhrələndir ki, onu heç nə ilə dəyişməyim, məni elə haqq bir yola yönəlt ki, ondan azmayım, mənə elə bir inkişaf niyyəti nəsib elə ki, onda şəkk etməyim. Allahım, nə qədər ki, ömrüm sənin itaətində sərf olur, məni yaşat.1

İslam Əlaqələri və Xarici Zəvvarlar idarəsi

---

1. Səccadiyyə Səhifəsi, 1-ci dua

## Suallar

Həyat tərzi anlayışı nədir? İmam Rzanın (ə) rəftarları və təlimlərindən həyat tərzini ələ gətirib örnək qərar verə bilərikmi?

İmam Rzanın (ə) rəftarının həyat tərzi ilə əlaqəsi nədədir?

Sizcə imam Rzanın (ə) həyatı bizə örnək ola bilərmi ?

Dini örnəklər həyatımızda hansı təsirə malikdir? Quran bu haqda hansı modeli təqdim edir?

İmam Rzanın (ə) Allahla rabitəsi haqda bilmək istərdik. İmamın sirəsi neçə olub?

Imamın (ə) ibadəti və Allahla rabitəsi nə tərzdə olub?

Nə üçün namaz vacib olub və biz niyə namaz qılmalıyıq?

Imamın namaz qılma tərzi cazibəli və maraqlıdır. Bu haqda hədis mövcuddur? Mümkünsə dəqiq şəkildə bəyan edin.

Namazı ilk vaxtda qılmağın sirri nədir və imam Rzanın (ə) buna münasibəti necə olub?

Məsumlar (ə) bizə səcdə etməyi niyə tövsiyə ediblər və özləri necə əməl ediblər?

Imam Rza (ə) camaat namazının önəmi və hikməti barədə nə buyurub?

Dəstəmaz almaq nəyə gərək və nə üçün alınma keyfiyyəti məhz o şəkildə vacib olunub?

Orucun tutulması nəyə gərək və nə üçün oruc ancaq ramazan

ayında vacib olmuşdur?

Həcc ziyarəti nə üçün vacib olub? İmam Rza (ə) səfərin qayda və ədəbləri barədə nə buyurub?

Imam Rzanın (ə) Quranla ünsiyyəti nə şəkildə olub?

Quran oxumaq üçün hansı müntəzəm proqram tövsiyə olunur?

Niyə gecə namazın qılınması tapşırılıb? Bu namaz imam Rzanın (ə) ibadətləri içində hansı yeri tutur?

Cəfər Təyyar namazı necədir? Bu namazın əhəmiyyətli olmasının səbəbi nədir və imam Rza (ə) bu namazı qılarmış?

Duanın əhəmiyyəti barəsində imam Rzanın (ə) buyurduğunu bəyan edin.

İslam dinində insanların dəyəri hansı ölçülərlədi?

İmam Rzanın (ə) ölüm və axirət barədə nəsihətin bəyan edin.

Əksərimiz günaha aludə olan halda, İmam Rzaya (ə) təqlid edərək günahdan necə çəkinib və həyatımızı necə nurani edə bilərik?

Salavatın təsiri, bərəkəti nədir? Salavat Allahla ünsiyyət və rabitəni necə yaradır?

İnsanın Allaha çoxlu şükür etməsi niyə bu qədər tövsiyə olunub?

İmam Rzanın (ə) rəftar və sözlərində xüsusi zikrlərin deyilməsinə tövsiyə olunubmu?

İnsanın və xüsusən də bir cavanın şəxsiyyətli olmasının həyatında nə təsiri var? Və şəxsiyyətsiz olarsa, hansı problemlərlə üzləşər?

İmam Rza (ə) ağıl və zəkanı necə dəyərləndirir?

Hansı əlamətlə ağıl sahibini tanıyıb, özümüzü onunla müqayisə edə bilərik?

Allah-tala hamını ona təvəkkül etməyə çağırır. Təvəkkülün

mənası nədir? İmam Rzanın (ə) Quran ayəsi barədə söylədiyini bəyan edin.

İmam Rza (ə) elmi və onu əldə etməyi necə dəyərləndirib?

Dinlə əlaqəmiz necə olmalı və imam Rzanın (ə) təlimlərində bu haqda nə tövsiyələr olunub?

Çətinliklərlə üzləşəndə nə etməliyik? Dini mətinlərdə imam Rzadan (ə) bu haqda hansı tövsiyələr gəlib?

İslamda məşvərətə niyə təkid olunub? İmam Rzanın (ə) həyat tərzində məşvərət olubmu?

İslamda insanın özünü hesaba çəkməsi tövsiyə olunub. Özünü hesaba çəkməyin sirri nədədir?

Şəxsiyyətimizi hansı mənfi xüsusiyyətlərdən qorumalıyıq?

Hər insanın həyatında pis və yaxşı günləri olur. İmam Rzadan (ə) örnək alaraq, həyatın şirin və acı anlarını necə keçirək?

İmam Rzanın (ə) iş və işin ədəbləri haqda baxışı necədir?

Məişətimizdə iqtisadiyyatı tənzimləmək üçün hansı yolu seçək? Ev və ailəmizə çox xərc etməyimiz israf sayılırmı?

İmam Rza (ə) özünü bəzəyərmiş? Misal üçün: Sacın, üzün səliqə-sahmana salarmış? Ətirdən istifadə edərmiş? Bu barədə nə buyurardı?

İslam dini təmizliyə, paklığa böyük önəm verir. Bu barədə imam Rzanın (ə) sözünü bəyan edin?

Şadlığa, əyləncəyə imam Rzanın (ə) münasibəti nə olub?

Səfər üçün hansı qayda qanunlar tövsiyə olunub?

Yatmaq barədə hansı tövsiyələr göstərilib? Yuxunun yozulması barədə hansı qayda göstərilib?

Peyğəmbərimizdən (s) insanların xoşbəxtliyinə səbəb ola bilən mənzil barədə hədis nəql olunub. Bu haqda yazın.

İmam Rzanın (ə) həyat tərzi hansı şəkildə olub? İmamın sadə həyat tərzi ilə dəbdəbəli həyat tərzinə baxışı nə olub?

İmam Rzanın (ə) sadə həyat tərzini nəzərə alaraq, geyimin keyfiyyətində hansı örnəyi ala bilərik?

Yeyib-içməyin hansı ədəb qaydaları mövcuddur? İmam Rza (ə) bu haqda nə buyurub?

İmamın başqaları ilə davranışı necə olub? O həzrətin gözəl əxlaqından bəyan edin.

İmam Rzanın (ə) ehtiyaclı və fəqir olanlara köməyi necə olub? Bəzi nümunələri misal gətirin.

Həyatımızda saleh və pis insanları tanıya bilərikmi?

Məsumların (ə) insan hüququna riayət etməsini dəfələrlə eşitmişik. İmam Rzanın (ə) bu haqda rəftarı necə olub?

İmam Rzanın (ə) həyat tərzində yumor hansı yeri tutur? Başqaları ilə zarafatın həddi nədir?

Nə üçün məsumlar (ə) xəstəni ziyarət etməyi tapşırıblar?

Valideynlərə hörmət və gözəl davranış üstün əməllərdəndir. Onlarla hansı şəkildə rəftar olunmasını bəyan edin.

İmam Rza (ə) həyat yoldaşını seçmək üçün hansı meyar təqdim edib?

İmam Rza (ə) həyat yoldaşı ilə hansı rəftarı tövsiyə edib?

İmamın (ə) həyat tərzində qohumlarla, ailə üzvləri ilə ünsiyyəti necə qurulub?

İmam (ə) övladlar barəsində nə buyurub?

Hər hansı dövlət məmurunun, idarə rəisinin ən mühüm vəzifəsi nədən ibarətdir?

Ictimai həyatımızın sağlam olması üçün imam Rza (ə) hansı əməlləri tövsiyə edib?

# Həyat Tərzi

## Ön Söz

İmam Rzanın (ə) hərəmində olmaq hər bir ziyarətçinin həyatında yadda qalan anlarından biridir. O, belə bir Cənnət bağında özünü ilahi rəhmət küləyinə tapşırır və Allah höccətinin xüsusi diqqəti, Allah vəlisinin məhzərində olmaq, onun duası sayəsində öz dünya və axirət həyatını imamət günəşinin işığı ilə nurlandırır.

Biz inanırıq ki, bu Cənnətin bütün ziyarətçiləri əziz və dəyərlidirlər. Onlara qulluq göstərmək isə biz xidmətçilərin hamısına vacibdir. Astani Qüdsi Rəzəvidə bütün xidmətçilər daşıdıqları məmuriyyət qədər ziyarətçilərin yüksək məqamlarına hörmətlə yanaşırlar. Astani Qüdsi Rəzəvinin İslam əlaqələri və təbliğat şöbəsinin rəhbərliyi də, mövcud imkanlardan istifadə etməklə İslam təlimlərini, mədəniyyətini yaymaq və əzəmətli İslam inqilabının mesajını hərəmin ziyarətçilərinə ötürmək istiqamətində öz vəzifəsini yerinə yetirirlər. Bu rəhbərlik həm də ziyarətçiləri istiqamətləndirib onların suallarına cavab verməklə yanaşı, bu əzizləri şiə maarifi ilə dərindən tanış etmək niyyətindədir.

Belə bir müqəddəs məsuliyyəti daşıdığımıza görə

mehriban Allaha şükür edir və Onun höccətinin yardımına ümid bəsləyirik. Bu hərəmin ziyarətçilərinin bir çox önəmli suallarını imam Rzanın (ə) həyatının müxtəlif yönlərini nəzərə alaraq "Rəzəvi sual-cavab" adlı bir məcmuə şəklində cavablandırmışıq. İndi isə onu yeni bir formatda sizə təqdim edirik.

Seyid Cəlal Hüseyni

Astani Qüdsi Rəzəvinin İslam əlaqələri və təbliğatı şöbəsinin rəhbəri

## Giriş

Bizim İslam maarifimiz bütün insani ehtiyacları özündə ehtiva edərək gözəl bir həyat tərzi və mədəniyyəti təqdim edir. Belə bir həyat tərzi insan həyatını dünyada formalaşdıran bütün məsələlərə kamil bir məcmuə şəklində toxunur. Davranış örnəklərinin gerçək həyatın qurulmasındakı rolu da xeyli önəmlidir. Buna görə də, düzgün ideal həyatı tətbiq etməkdə Əli ibn Musa ər-Rzanın şəxsiyyətinə əsaslanmaq vacibdir. Bu, "Həyat tərzi"nin imam Rzanın (ə) söz və rəftarından ilham alaraq ön plana çəkdiyi hədəfdir.

Bu kitab imam Rzanın (ə) istiqamətləndirici elmi mirasından istifadə etməklə sizin gözəl həyat tərzi barədəki suallarınızı cavablandırıb. Allah, öz və məxluqatla olan əlaqə fonunda dini yaşamağı təsvir edir. Bununla da, O həzrətin həyatından örnək almaqla öz həyatımızı zorla sırınan yad həyat tərzindən paklaya bilək.

# Birinci Fəsil: Ideal həyat tərzi

## Həyat tərzi anlayışı

***Həyat tərzi anlayışı nədir? İmam Rzanın (ə) rəftarları və təlimlərindən həyat tərzini ələ gətirib örnək qərar verə bilərikmi?***

Həyat tərzi insanın dünyadakı yaşamını formalaşdıran problemlərlə əlaqədar bir anlayışdır. Başqa sözlə, dindarcasına yaşamaq tərzi barədə danışılarkən insanın öz həyat reallığında qarşılaşdığı bütün problemləri nəzərə almaq deməkdir. Buna görə də, həyat tərzi insanın Allah, öz, ailə, cəmiyyət və hətta təbiətlə olan davranışını geniş müstəvidə özündə ehtiva edir.

Həyat tərzi insana yaşamaq formasını öyrədən "yaşam ağlı"[1] ilə eyniyyət təşkil edir. Bu ağıl insana necə yaşamalı olduğunu söyləyir. Demək, bu ağlın funksiyası insanı dini həyata istiqamətləndirə bilməsi üçün həyatı necə idarə etmək, həyat çətinliklərini, problemlərini necə çözmək və

---

1. "Yaşam ağlı məxluqları həm çoxalmağa, artmağa əmr edir, həm də onlara fiziki dünyada baş verən xeyir və zərərləri aşılayır və eyni zamanda, onları təhlükələrdən qoruyur. Yaşam ağlı bir an belə olsun qəflətə məruz qalmadan insanlara nəzarət edir, fiziki dünyanı inkişaf etdirir və Allahın yer üzərində xəlifəsi kimi çıxış edir..." Səbzvari,Hadi əl-Muzillin kitabı, s. 81.

dini qanunlarla həmahəngliyi qoruyaraq onları münasib, ideal həyatı formalaşdırmaq məqsədilə cəhd etməkdən ibarətdir. Hədislərdə bu cür ağıla "Yaşam ağlı" deyilir: "Ağılın artmasının ən yaxşı dəlili idarəçiliyin gözəl olmasıdır".[1] Həmçinin İmam Rzanın (ə) bu kəlamında belə oxuyuruq: "İnsanlarla mehriban davranmaq ağılın yarısıdır".[2]

İslam həyat tərzi və yaşam ağlı- İslamı ehtiva etdiyi bütün yönləri ilə insanın bütün həyat sahələrində icra edib həyata keçirməklə əlaqədardır. Bu əsasla, müəyyən bir təsnifatla- insanın Allah, öz və başqaları ilə olan əlaqələrini nəzərə almaqla dindarcasına bir həyat formalaşdırıb, məsumların söz və yaşam tərzinə əsaslanaraq yaşamaq şəklini örnək kimi təqdim etmək mümkündür.

## Sirə ilə həyat tərzinin əlaqəsi

### *İmam Rzanın (ə) rəftarının həyat tərzi ilə əlaqəsi nədədir ?*

"Sirə" ərəb dilində "seyr" sözündən alınıb. "Sirə" hərəkət etmək, getmək, yol qət etmək, "sirə" isə hərəkət etmək, getmək tərzi deməkdir. Qrammatik dillə ifadə etsək, sirə "filə" vəznindədir ki, bu da işin hansı tərzdə olduğunu ifadə edir. Məsələn, "cəlsə" oturmaq, "cilsə" isə oturmaq tərzi deməkdir. Deməli, "seyr" getmək, "sirə" isə getmək tərzini ifadə edir. Lüğət kitablarında qeyd olunduğu kimi, "sirə" sözünün izahında forma, halət, metod, davranış, yol, qayda, adət, fəaliyyət və s. bu kimi anlamlara da

1. Təsnif Ğurər əl-Hikəm, s. 354
2. "Tuhəf əl-Uqul", s. 444.

işarə edilir.[1] Bu əsasla, "sirə"ni bir növ davranış tərzi kimi başa düşmək olar.

Yuxarıda qeyd etdiyimiz "sirə" anlayışına əsasən, imam Rzanın (ə) sirəsi dedikdə, əslində, imamın müəyyən sahələrdəki davranış tərzini tanımağı nəzərdə tuturuq.

Biz sirədə aşağıdakı sualların cavabını axtarmağa çalışırıq:

- İmamın ibadət həyat tərzi necə idi?

- İmam öz dostları ilə necə davranırdı?

- İmam öz ailəsi ilə necə keçinirdi?

- İmam öz düşmənləri ilə neçə və hansı tərzdə rəftar edirdi?

- İmam dini necə təbliğ edirdi?

- İmam cəmiyyətdə necə rəhbərlik edirdi?

və s. bu kimi onlarla həyat tərzinə aid nümunələr.

Yuxarıdakı izaha əsasən, sirənin həyat tərzi ilə olan əlaqəsi də aydınlaşır. Belə ki, həyat tərzi insanın dünyadakı həyatını, yaşamını formalaşdıran məsələlərlə əlaqədardır. Digər tərəfdən, məlum olduğu kimi, İslam həyat tərzinə əsaslanmaq məsum şəxsin sirə və tövsiyələrinə əsaslanmaq deməkdir. Elə buna görə də, dindarların, möminlərin həyatı imamın həyat reallığı, onun davranış və hətta tövsiyəsi baxımından təsvir olunur.

---

1. İbn Faris, mucəm məqais əl-Luğə, c. 3, s. 121; Məhmud ibn Omər Zəməxşəri, əsas Əl-luğə, tədqiqat: Əbdurrəhim Məhmud, s. 226.

## Sirəyə tabe olma

### *Sizcə imam Rzanın (ə) həyatı bizə örnək ola bilərmi?*

Məlumdur ki, hamı üçün məsum rəhbərlərin sirə və xarakterindən istifadə şansı var. Deməli, Peyğəmbərin söz və davranışına tabe olduğumuz kimi imamın söz və davranışına da tabe olmalıyıq. Allah-taala belə buyurur: "*Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!*"[1]

Peyğəmbər və özündən sonrakı imamlar elə bir qaynaq hesab olunurlar ki, həyat tərzini məhz ondan əldə etməliyik. Məsumların davranışı o qədər dərindir ki, onların ən cüzi işlərindən belə həyat qanunları əldə etmək olar. Məsum şəxsin kiçik bir işi, davranışı çıraq kimi olduqca uzaq məsafələri insana aydınladan nur və şölə hesab olunur. Ayətullah şəhid Mürtəza Mütəhhəri bu barədə yazır: "Qurana qarşı etdiyimiz zülmün bənzərini Peyğəmbər və onun Əhli-beyt imamlarına qarşı da etmişik. Peyğəmbərlərin, övliyaların sirəsini, xüsusən də, həzrət Peyğəmbərin və məsum imamların sirəsini götürüb səmaya qaldıraraq demişik ki, o ki peyğəmbərdir. Belə bir yanaşmanın nəticəsi odur ki, əgər bizim üçün bir ömür peyğəmbər tarixi oxusalar belə, bizim üçün dərs hesab olunmayacaq. Bu, ona bənzəyir ki, durub, məsələn, mələklərin yuxarı aləmdə filan cür nəsə etdiklərini söyləsinlər. Yaxşı, mələklər nəsə etmələrinin bizə nə aidiyyəti var? Bu, o deməkdir ki, bu cür bilik qaynağını bizdən alıblar. Halbuki əgər deyilən kimi olsaydı, onda Allah peyğəmbər əvəzinə bizə mələk yollayardı. Peyğəmbər kamil insan deməkdir, imam Əli kamil insan deməkdir, Hüseyn kamil insan deməkdir, Zəhra ka-

1. Əhzab: 21

mil insan deməkdir. Bu şəxsiyyətlər yüksək fövqəlbəşəri kamilliklə yanaşı, bəşəri xüsusiyyətlərə də sahibdirlər, yəni bir bəşər kimi acıb yemək yeyirlər, susayıb su içirlər, yatırlar, öz övladlarını sevirlər, cinsi instinktləri var, emosiyaları var. Elə buna görə də, onlara tabe olmaq olar. Əgər bu cür olmasaydılar, o zaman imam və rəhbər ola bilməzdilər".[1]

Başqa imamlar kimi imam Rzanın (ə) həyatında da aydın şəkildə nəzərə çarpan və örnək kimi qəbul edilə bilən odur ki, imamın əxlaqı sözü və dini kimi geniş, ətraflı idi. İmam Rza (ə) bütün insani yönlərdə kamil və tam idi.

Xandəmir adı ilə tanınan Ğiyasuddin Şafii (vəfat: 942) imam Rzanın vəsfində belə bir şeir deyir:[2]

*Elm və fəziləti özündə ehtiva edən əzəmət, izzət səması,*

*Şərq və Qərbin imamı və ali-Məhəmməd pənahgahı,*

*Elm və yüksəklik çoxluğu onun məkanıdır, o dərəcədə ki,*

*kimsə onu olduğu kimi şərh edə bilməz.*

*Qələm əgər büsbütün onun vəsfi barədə yazsa, min il də yazsa, bitirə bilməz.*

## Örnəklərin həyatdakı qurucu rolu

### *Dini örnəklər həyatımızda hansı təsirə malikdir? Quran bu haqda hansı modeli təqdim edir?*

Hər bir mömin ideal (meyar) həyata nail olmaq üçün gözəl bir örnək axtarır ki, özünü onunla müqayisə edərək öz həyatını onun rənginə boyasın. Örnək arama,

1. Sire-ye nəbəvi, s. 31, 43 və 46.

2. Xondəmir, həbibus-Siyər tarixi, c. 2, s. 83.

qəhrəmansevmə insanda olan dəyər sevgisi ilə əlaqədardır. Quran bu ehtiyacı nəzərə alaraq hz. İbrahim[1], İsmail[2], Musa[3], Məryəm[4], Yəhya, Yusif[5], xüsusən, Məhəmməd peyğəmbər[6] kimi şəxsiyyətlərə işarə edir və hamını onlardan örnək almağa təşviq edir. Allah-taala həzrət İbrahim barədə belə buyurur: "*İbrahim və onunla birlikdə olanlar (möminlər) sizin üçün gözəl örnəkdir...*"[7]

Yusif və qardaşlarının hekayəsində tövhid özünü təzahür etdirir, Allah ixlaslı qullarının dostu və onların izzət məqamına yüksələnə qədər ki işlərinin sahmançısı kimi təqdim olunur və nəticədə Allah onları yüksəldərək kamillik taxtında əyləşdirir.[8] Həmçinin Allah şəhvət, paxıllıq, kin qarşısında dözümlülük nümayiş etdirib təqvalı olmağa çalışan və təqva sayəsində bütün müsibətlərə, bəlalara dözən adama gözəl şəkildə mükafatlandırar: "*Onlar: "Yoxsa sən Yusifin özüsən?!" – dedilər. O da: "Mən Yusifəm, bu da qardaşımdır. Allah bizə lütf etdi. Kim Allahdan qorxub pis əməllərdən çəkinsə və səbr etsə, (bilsin ki) Allah yaxşı işlər görənlərin mükafatını əsla zay etməz!" – deyə cavab verdi*".[9]

Quran Yusuf surəsində yaxşılığın ölkə idarəçiliyindəki əhəmiyyətinə görə onun qiymətinə və habelə dünyəvi fay-

---

1. Ənbiya: 60
2. Saffat: 101 və 102
3. Qasas: 14
4. Ali İmran: 37
5. Yusuf: 23, 24, 25, 26, 27, 28, 29, 30, 31 və 32
6. Əhzab: 21
7. "Mumtəhənə"- 4
8. Yusuf: 7
9. Yusuf: 90

dalara nail olmağa təkid edir.[1] Quran cavan Yəhyadan danışarkən, onun üç davranış xüsusiyyətinə toxunub Allah, ailə və insanlarla olan əlaqəsini təsvir edir: *"...O, müttəqi idi. (Yəhya) ata-anasına qarşı da olduqca itaətkar idi: zalım, asi (dikbaş) deyildi"*.[2] Əllamə Təbatəbai bu ayənin təfsirində yazır: *"...O, müttəqi idi."*- cümləsi onun Allah qarşısındakı halını, *"ata-anasına qarşı da olduqca itaətkar idi."*- cümləsi valideynləri qarşısındakı vəziyyətini və *"zalım, asi (dikbaş) deyildi."*- cümləsi isə başqa insanlarla olan davranışını, münasibətini şərh edir.[3]

Allah-taala Qurani-Kərimdə həzrət Məryəmi sahib olduğu iffətə görə mədh edir, tərifləyir: *"(Allah mömin qadınlara) həmçinin namusunu (ismətini) möhkəm qoruyub saxlamış İmranın qızı Məryəmi də misal çəkdi. Biz (Cəbrail vasitəsilə) ona Öz ruhumuzdan üfürdük. Məryəm Rəbbinin sözlərini, kitablarını təsdiq etdi və (Allaha) itaət edənlərdən oldu"*.[4]

Həzrət Peyğəmbərin (s) Məkkədən Mədinəyə hicrət etməsi və imam Əlinin (ə) Leylətül-məbitdə o həzrətin yerində uzanması izah edilərkən, Quran bu örnək cavanın fədakarlıq və ixlasını qeyd edir: *"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!"*[5]

İmam Əlinin (ə) şəxsiyyətinə diqqət etdikdə onun həzrət Məhəmməddən (s) örnək almasının nümunəvi, bənzərsiz bir şəkildə olduğuna şahid oluruq. Hz. Əli (ə)

1. Mudərrisi, Hidayət təfsiri, c. 5, s. 212

2. Məryəm: 13 və 14

3. Təbatəbai, əl-Mizan, c. 14, s. 25

4. Təhrim: 12

5. Bəqərə: 207

belə buyururdu: “*Mən dəvə balası anasının dalına düşüb getdiyi kimi onun arxasınca gedirdim. O, hər gün öz əxlaqi xislətlərindən bir bayraq və əlamət ucaldır (büruzə verir) və mənə ona yiyələnməyi əmr edirdi*”.[1]

İmam Əli (ə) və həzrət Fatimənin (ə) Quranda “əbrar (xeyirxah)” adlandırılması diqqətə layiq bir nüansdır. Üç gecə ardıcıl olaraq öz yeməklərini yoxsula, yetimə və əsirə yedirdilər. Onlar Allahın elə qullarıdırlar ki, etdikləri nəzri, verdikləri sözü yerinə yetirirlər, dəhşəti bütün məhşər əhlini bürüyəcək bir gündə Allahın qəzəbindən qorxurlar, məhz Allahı sevdikləri üçün yoxsulu, əsiri, yetim uşağı yedirdirlər və “Biz bunu təkcə Allahın rizasından ötrü edirik və sizdən nə bir mükafat, nə də bir təşəkkür istəyirik.”-deyə söyləyirlər.[2]

Quran ayələri üzərində düşünməklə təsdiqləmək olar ki, bu ilahi kitab möminlərin örnək axtarışı tələbatını gözəl bir şəkildə ödəmişdir, çünki bu kitab hər bir anlayışla yanaşı onun predmetini, nümunəsini də qeyd edir. Bu nüans cavan birisinin nümunə axtarış hissini ödəyən ən gözəl yanaşmadır. Məsələn, bu ayəyə diqqət edin: *“Yaxşı əməl heç də (ibadət vaxtı) üzünü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba (Allahın nazil etdiyi bütün ilahi kitablara) və peyğəmbərlərə inanan, (Allaha) məhəbbəti yolunda malını (kasıb) qohum-əqrəbaya, yetimlərə, yoxsullara, (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara), dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə (ehtiyac, yaxud xəstəlik üz verdikdə) və cihad zamanı (məşəqqətlərə) səbr*

1. Nəhcül-Bəlağə, xütbə: 192
2. İnsan: 7, 8, 9, 10. Bax: Təbərsi, cəvami əl-Cami, c. 4, s. 410.

*edənlərdir. (İmanlarında, sözlərində və əməllərində) doğru olanlardır. Müttəqi olanlar da onlardır!"*[1]

*"Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə..."*-ifadəsi "əbrar"ın kim olduğunu tərif edir ki, bu da onları üç dərəcədə təsnif edir: 1. İnam dərəcəsi: *"Allaha inanan"*, 2. davranış dərəcəsi: *"...doğru olanlardır"*, 3. Əxlaq dərəcəsi: *"Müttəqi olanlar da onlardır!"*.[2]

Əllamə Təbatəbai bu ayənin təfsirində belə yazır: "Bu, Quranın bütün izahlarındakı qaydasıdır, belə ki, mənəvi məqamları bəyan edərkən bunu o məqama sahib olanların kim olduğunu, hallarını şərh etməklə izah edir və təkcə anlayışı açıqlamaqla da kifayətlənmir".

Buna görə, Quran həqiqi möminlərin reallığa baxışlarını, onun qarşısındakı mövqelərini mötədil, balanslı görmək istəyir. Həmçinin şəxsiyyət baxımından öhdəlikləri təqdim etməklə onları harmonik, həmahəng inam və davranışlara sahib görmək istəyir ki, bununla da, onlar mümkün olan hər bir fürsətdən yararlanaraq ən yaxşı şəkildə bəhrələnib örnəklərdən istifadə etməklə kamil insan nümunəsinə nail ola bilsinlər.

---

1. Bəqərə: 177

2. əl-Mizan, c. 1, s. 649.

# İkinci fəsil: Allahla rabitə

## Təqva və bəndəlik

***İmam Rzanın (ə) Allahla rabitəsi haqda bilmək istərdik. İmamın sirəsi neçə olub?***

İmam Rzanın (ə) mənəvi hallarında qeyd olunub ki, o, az yatar, çox oruc tutardı və hər ayda üç gün oruc tutmağı heç vaxt tərk etməzdi. O, belə buyurardı: “Hər ayda üç gün oruc tutan birisi bütün ömrü boyu oruc tutan adam kimidir”.[1]

O həzrət öz köynəyini Debələ hədiyyə edəndə belə buyurdu: “Ey Debəl, bu köynəyi qoruyub saxla, çünki mən onda min gecə boyu min rükət namaz qılıb min dəfə Quran xətm etmişəm”.[2]

İmam Rzanı (ə) Mərvə gətirməkdə məmur olan Rəca ibn Zəhhak Məmuna verdiyi hesabatın bir hissəsində belə deyir: “Mən Mədinədən Mərvə qədər davamlı olaraq onu müşayiət edirdim. And olsun Allaha, ondan daha təqvalı olan, bütün anlarında Allahı anan və daha təqvalı olan kimsəni görmədim”.[3]

1. Səduq, Uyunu əxbarir-Riza, c. 2, s. 184.
2. Məclisi, biharul-Ənvar, c. 79, s. 309.
3. Səduq, Uyunu əxbarir-Riza, c. 2, s. 183.

İmam Rza (ə) Allahı bütün hallarda anırdı və belə bir mədəniyyəti öz dostlarına tövsiyə edirdi. Hətta hansısa bir lazımi məsələ barədə qeyd yazmaq istədikdə belə yazardı: "Bismillahir-rəhmanir-rəhim, əgər Allah istəsə, xatırlayacağam". Daha sonra isə istədiyi qeydi yazırdı.[1]

## Namazın mədəniyyəti

***Imamın (ə) ibadəti və Allahla rabitəsi nə tərzdə olub?***

İmam Rza (ə) namazı hər bir təqvalı insanın Allaha yaxınlaşma vasitəsi hesab edərək buyururdu: "Namaz hər bir təqvalı adamın Allaha yaxınlaşma vasitəsidir".[2]

İmam Rza (ə) həmçinin namazın mədəniyyəti barədə belə buyururdu: "Əgər namaza durdunsa, onda yorğun, yuxulu, süst və tənbəl olmamağa çalış. Əksinə, namazı aramlıqla qıl. Çalış namazda Allah qarşısında müti və təvazökar ol. Qorxunu özünə hakim et. O zaman ki, qorxu ilə ümid arasındasan və öz ağası qarşısında dayanan günahkar bir qul kimi daim nigaranlıq hissi keçirirsən, aləmlərin Rəbbi qarşısında dayan. Ayaqlarını bir-birinin kənarına qoyub qamətini düz saxla, sağa və sola baxma! Elə bir vəziyyətdə ol ki, sanki Allahı görürsən və əgər sən Onu görmürsənsə, bil ki, O, səni görür".[3]

## Namazın hikməti

***Nə üçün namaz vacib olub və biz niyə namaz qılmalıyıq?***

İmam Rza (ə) namazın fəlsəfəsi barədə soruşulan bir

1. Tuhəful-Uqul, s. 443.
2. Səduq, Uyunu əxbarir-Riza, c. 2, s. 7.
3. Fiqhur-Riza, s. 101.

məktuba cavab olaraq belə buyurdu: “Namazın bir qanun kimi qoyulmasının səbəbi odur ki, bəndə Allahın Rəbb olduğunu iqrar etsin və davamlı olaraq şirklə mübarizə, Allah qarşısında durma, tam bir təvazökarlıq, günahları etiraf etmə, keçmiş günahlardan dolayı əfv diləmə, alını yerə qoyma həyata keçsin. Həmçinin başqa bir səbəb isə odur ki, insan daim Allahı xatırlayaraq unutqanlığa məruz qalmasın, məğrurlaşmasın, müti olsun, din və dünya nemətlərinin çoxalmasını tələb etsin. İnsanın Allaha qarşı olan diqqəti və Onun qarşısında durması onu günahlardan çəkindirərək müxtəlif fəsadların qarşısını alar.

İmam Rza (ə) namazın başqa faydaları barədə belə buyurur: “Gecə-gündüz qılınan namaz və davamlı Allahı anmaq insanın öz ağasını, idarəçisini, yaradanını unutmamasına, üsyan və tüğyan ruhiyyəsinin ona qələbə çalmamasına gətirib çıxardır”.[1]

## Namazın keyfiyyəti

***Imamın namaz qılma tərzi cazibəli və maraqlıdır. Bu haqda hədis mövcuddur? Mümkünsə dəqiq şəkildə bəyan edin.***

İmam Rzanın (ə) necə namaz qılmasına dair aşağıdakı hədislərə işarə edirik:

1. Ravi belə deyir: “Biz bir neçə ay imam Rzanın arxasında namaz qıldıq. Vacib namazlarda həmişə birinci rükətdə Həmd və Qədr surəsi, ikinci rükətdə isə Həmd və İxlas surəsini oxuyardı”.[2]

2. Muəmmər ibn Xəllad o həzrətin Xorasandakı dövrü-

1. Səduq, Kitabu mən la yəhzuruhul-fəqih, c.1, s. 215.

2. Səduq, Uyunu əxbarir-Riza, c. 2, s. 206.

nü və qıldığı sübh namazını belə xatırlayır: “Sübh namazını bitirən kimi günəş çıxana qədər namaz qıldığı məkanda oturardı. Dişlərini misvakla yuduqdan sonra Quranı açıb onu oxuyardı”.[1]

3. İmam Rzanı (ə) Mədinədən Mərvə aparmaqla vəzifəli olan Rəca ibn Zəhhak belə deyir: “Əli ibn Musa sübh namazını qıldıqda öz namaz məkanında əyləşər, təsbih (subhanəllah), təhlil (la ilahə illəllah), təkbir (Allahu əkbər) deyər və günəş çıxana kimi öz babası həzrət Məhəmmədə (s) salam göndərərdi. Sonra başını səcdəyə qoyar və günəş çıxandan bir müddət sonra səcdədən qalxardı”.[2]

4. Namazın qunutunda bu duanı oxuyardı: “Rəbbiğfir vərhəm və təcavəz əmma tələm, innəkə əntəl-əəzzul-əcəllul-əkrəm”.[3]

5. Səfər və qeyri-səfərdə olarkən məğrib namazının nafiləsini, gecə, şəf, vitr namazlarını və habelə sübh namazının nafiləsini tərk etməzdi, ancaq gündüz vaxtı qılınan namazların (zöhr və əsr) nafilələrini qılmazdı.[4]

6. Axşam olanda iftardan əvvəl öz namazını qılardı.[5]

7. Qıldığı hər qəsr namazından sonra 30 dəfə “Subhanəllahi vəl-həmdulillahi və la ilahə illəllahu vəlləhu əkbər” zikrini təkrarlayıb buyurardı ki, namazın tamamlanması bu zikrlə həyata keçir.[6]

---

1. Səduq, Kitabu mən la yəhzuruhul-fəqih, c. 1, s. 504.
2. Səduq, Uyunu əxbarir-Riza, c. 2, s. 183.
3. Səduq, Uyunu əxbarir-Riza, c. 2, s. 83.
4. Yenə orada.
5. Yenə orada.
6. Yenə orada.

8. Dua oxumağa başlamazdan öncə həzrət Məhəmməd (s) və onun ailəsinə salavat göndərərdi. Namazda və qeyri-namazda bu əməli xeyli təkrar edərdi.[1]

## Namazın ilk vaxtı

***Namazı ilk vaxtda qılmağın sirri nədir və imam Rzanın (ə) buna münasibəti necə olub?***

Peyğəmbərin baxışında ilk vaxtda qılınan namaz Allah dərgahında ən sevimli əməldir.[2] O həzrət belə buyurardı: "Namaz öz vaxtında qılınanda parıldayan bir nur kimi səmaya doğru qalxar və ərşə çatana qədər asimanın qapıları o namazın üzünə açılar. Sonra namaz qılan üçün şəfaət edərək "Məni qoruduğun kimi Allah da səni qorusun!"- deyə səslənər".[3]

İmam Rza (ə) namazı ilk vaxtında qılmağı olduqca çox tövsiyə edər və üzrsüz olaraq onu yubatmağı doğru hesab etməzdi. O həzrət belə buyurardı: "Hər bir namazın əvvəl və axır olmaqla iki vaxtı var, belə ki, vaxtın əvvəli Allahın razılığı, axırı isə Allahın əfvidir".[4]

İmam Rzanın (ə) sirəsində də namazı ilk vaxında qılmağa dair təkid açıq şəkildə nəzərə çarpırdı. Bir gün Xorasanda namaz vaxtı imam Rza (ə) İbrahim ibn Musaya "Azan ver!"- deyə buyurdu. O isə imamdan başqalarının da gəlməsi üçün icazə istədi. Həzrət belə buyurdu: "Allah səni bağışlasın! Namazı ilk vaxtından üzrsüz olaraq yubatma, namazı qıl". Bu zaman İbrahim dərhal ayağa qalxaraq

---

1. Yenə orada.
2. Səduq, Xisal, c. 1, s. 78.
3. Deyləmi, irşadul-Uqul, c. 1, s. 190.
4. Fiqhur-Riza, s. 71.

azan verdi və namaz ilk vaxtında qılındı.[1]

Bu ənənə imamın sirəsində hər bir zaman və məkanda yayğın idi. O həzrətin qızğın elmi dialoqları və moizə yığıncaqları belə namazı ilk vaxtında qılmaqdan geri salmırdı. Yığıncaqların birində imam Rza (ə) İmran Sabi ilə bəhs edirdi. O böyük bir alim kimi o həzrətlə tövhid barədə müzakirə aparırdı. Məmunun da iştirak etdiyi bu yığıncaqda imam Rza (ə) aydın dəlillərə istinadən səbir və təmkinlə İmranın suallarını cavablandırır və onu tövhidə-təkallahlığa istiqamətləndirirdi. Bəhsin ən qızğın yerində birdən namaz vaxtı oldu. İmam Rza (ə) Məmuna tərəf baxaraq belə buyurdu: “Artıq namaz vaxtı çatıb!”. Bu zaman tövhidlə əlaqədar bəzi həqiqətləri anlamaqda olan İmran Sabi imamdan belə bir xaiş etdi: “Mənim ağam, öz bəhsini, cavablarını dayandırma. Mənim qəlbim sizin sözlərinizi qəbul etmək üçün hazırdır”. İmam Rza (ə) isə cavabında belə buyurdu: “Namaz qılıb dialoqumuza davam edərik”. Bu zaman imam və onun dostları namaz qılmaqla məşğul oldular. Namaz bitdikdən sonra imam Rza (ə) İmranla olan dialoqunu davam etdirdi.[2]

## Səcdə

***Məsumlar (ə) bizə səcdə etməyi niyə tövsiyə ediblər və özləri necə əməl ediblər?***

Səcdəni bəndəliyin canı, Allaha yaxınlaşmağın əsas vasitəsi hesab edirlər. Səcdə- bütün yadlardan qaçmaq və tamamilə Allaha üz tutmaq deməkdir. Necə ki imam Sadiq (ə) buyurur: “Allah-taala səcdənin anlamını özünə yaxınlaşmaq üçün bir səbəb təyin etmişdir ki, insan qəlbən bü-

1. Ravəndi, əl-Xəraic vəl-cəraih, c. 1, s. 338; biharul-Ənvar, c. 49, s. 49.
2. Səduq, ət-Tövhid, s. 435.

tün qüvvələri ilə Ona doğru yönələ bilsin”.[1]

İmam Rza (ə) da bəndənin Allaha ən yaxın halını onun Allah qarşısında səcdəsində görürdü.[2] Elə buna görə, Allah-taala belə buyurmuşdur: “(Rəbbinə) səcdə et və (Ona) yaxınlaş!”[3] O həzrət bir kəlamında belə buyururdu: “Namazın ən gözəl rüknlarından biri də səcdədir. Bu rükn namazda və hətta qeyri-namazda insanın Allaha ən yaxın halı hesab olunur”.[4]

İmam Rzanın (ə) sirəsinə gəlincə, o, uzun səcdələrlə dolu idi. O həzrət Süleyman Cəfəriyə belə buyurdu: “Güclü bir külək əsməyə başladı, mən isə səcdədə idim. Hər kəs özünü küləkdən qorumaq üçün bir yer axtarırdı, ancaq mən hələ də külək dayanana qədər səcdədə idim”.[5]

## Camaat namazı

***Imam Rza (ə) camaat namazının önəmi və hikməti barədə nə buyurub?***

İmam Rza (ə) camaatla qılınan bir rükət namazı, fərdi şəklində qılınan iki min rükət namazdan üstün hesab edirdi. O, camaat namazının əhəmiyyətini vurğulayaq belə buyurardı: “Hər bir günahkarın arxasında namaz qılmayın və yalnız vilayət əhlinə (imamiyyə məzhəbindən olana)

1. Misbahuş-Şəriə, s. 123.
2. Kuleyni, «Əl-Kafi», c. 3, s. 264.
3. Ələq: 19. Hədisdə qeyd olunub ki, bir gün Peyğəmbər (s) bu ayəni oxudu və sonra həm özü, həm də onunla birgə olan möminlər səcdəyə getdilər, bir haldaki Qureyş onların başlarının üzərində həm fit, həm də əl çalırdılar. Cəvamiul-Cami, c. 4, s. 467.
4. Huveyzi, nurus-Səqəleyn, c. 5, s. 611.
5. Uyunu əxbari-Riza, c. 2, s. 7.

iqtida edin”.[1]

İmam Rza (ə) “Nə üçün şəriətdə camaat namazı təyin edilmişdir?”- sualının cavabında namazın hikmətinə işarə edərək belə buyurur: “Bu, ona görədir ki, ixlas, tövhid, İslam və Allaha ibadət aşkarlansın, çünki bunların aşkarlanması Allahın Şərq və Qərb əhli üçün höccətidir, ona görə ki, münafiq (namaza əhəmiyyət verməyən, onu kiçik sayan adam) iqrar etdiyinə zahirdə də olsa, əməl edib İslamın təyin etdiyi namazı müsəlman cəmiyyəti içərisində həyata keçirsin və müsəlmanların bir-biri barəsindəki şəhadətlərinin mümkün ola bilməsi üçün ehtiyatlı olsun. Camaat namazında bununla yanaşı, digər faydalar da vardır; məsələn, çarəsizlərin fəryadına cavab vermək, köməksizlərə yardım əli uzatmaq, başqalarına yaxşılıq etmək, günahlardan çəkinmək və bir çox ilahi yasaqların baş verməsinin qarşısını almaq kimi. Bütün bunlara camaat namazı ilə nail olmaq olar”.[2]

## Dəstəmazın səbəbi

***Dəstəmaz almaq nəyə gərək və nə üçün alınma keyfiyyəti məhz o şəkildə vacib olunub?***

Fəzl ibn Şazan imam Rzadan (ə) nəql etdiyi hədislərin birində belə deyir: “Əgər kimsə “Nə üçün insanlar dəstəmaz almalıdırlar və nə üçün İslamda bu əməl vacib edilmişdir?” - deyə soruşsa, cavabında belə deyilər: Bu, ona görədir ki, bəndə hər dəfə Allahın qarşısında durub Onunla münacat etmək istədikdə, pak olmalı, özünü çirkinlikdən təmizləməli, tənbəlliyi özündən uzaqlaşdırmalı və aram, pak bir qəlblə Onun qarşısında dayanmalıdır.

1. Tuhəful-Uqul, s. 417.

2. Uyunu əxbari-Riza, c. 2, s. 109.

Əgər kimsə “Nə üçün dəstəmazda əl, ayaq, baş və üzün yuyulması vacib edilmişdir?”- deyə soruşarsa, bu zaman cavab olaraq belə deyilər: Hər dəfə bəndə Allahın qarşısında duranda, onun görünən bədən üzvləri dəstəmaz zamanı yuyulan hissələrdir. Çünki namaz qılan öz üzü ilə səcdə edir, öz əli ilə Allahdan nəsə diləyir, öz başı ilə rüku və səcdə edir, öz ayaqları ilə isə oturub qalxır.

Əgər kimsə “Nə üçün yumaq təkcə əl və üzə, məsh etmək isə baş və ayağa aiddir? Nə üçün bütün üzvləri yumamaq və ya onları məsh etmək lazım deyil?”- deyə soruşarsa, onda belə cavab verilər ki, bu göstərişlərin bir neçə səbəbi vardır:

1. Bir tərəfdən, rüku və səcdə böyük ibadət olduğuna və onlar da üz və əl vasitəsi ilə həyata keçdiyinə görə, digər tərəfdənsə, baş və ayaq bu məsələdə rol oynamadığına görə onları yumaq vacib edilməmişdir.

2. İnsanlar həmişə öz baş və ayaqlarını yuya bilmir, səfər zamanı və ya hava soyuq olanda və yaxud xəstələnəndə həmin üzvləri yumaq onlar üçün olduqca çətinləşir, səhər-axşam bu işi təkrarlamaq isə çox çətindir. Amma üz və əlləri yumaq daha asandır. Vacib əməllər Allah tərəfindən ən zəif insanların bacarığı nəzərə alınaraq təyin edilmişdir. Bundan əlavə, zəif, güclü, sağlam və xəstə insanların hamısı həmin göstərişlərə əməl etməlidirlər.

3. Üz və əl, baş və ayağın əksinə olaraq həmişə açıqda deyillər.

Əgər kimsə “Nə üçün dəstəmaz təkcə bovl, qait və ya yuxu zamanı vacib edilmiş, qalan hallarda isə bu vacib edilməmişdir?”- deyə soruşarsa, cavab olaraq ona belə deyilər ki, nəcasət insandan təkcə bu iki yerdən ifraz edildiyinə və insanda da bundan başqa ifrazat yeri ol-

madığına görə, insana əmr edilmişdir ki, nə zaman ondan nəcasət ifraz olunsa, onda dəstəmaz almalıdır.[1]

## Oruc və Razaman

***Orucun tutulması nəyə gərək və nə üçün oruc ancaq ramazan ayında vacib olmuşdur?***

Sualın birinci hissəsinə dair imam Rzadan (ə) belə bir cavab nəql edilmişdir. Beş səbəbə görə insanlara oruc tutmaq vacib edilmişdir:

1. Aclıq və susuzluq dərdini anlasınlar;

2. Adıkeçən dərdi dərk etməklə axirətdəki ehtiyaclarını, yoxsulluqlarını anlasınlar, yəni bunu axirətdəki ehtiyacları üçün bir nişanə hesab etsinlər;

3. Bununla da, oruc tutan insan müti, təvazökar olub aclıq və susuzluğa tab gətirdiyi üçün mükafata layiq görülsün. Əlavə olaraq, başqa faydalar da vardır, məsələn, şəhvətin tüğyan etməsinin qarşısının alınması və ya nəfsani istəklərin kontrol edilməsi kimi;

4. Oruc dünyada oruc tutanlar üçün ilahi öhdəliklərini yerinə yetirmək üçün moizəçi və yardımçı, axirətdə isə yolgöstərən kimi çıxış edir. Deməli, oruc dünyada oruc tutanın ilahi öhdəlikləri həyata keçirə bilməsi üçün zəmin yaradır;

5. Nəticədə oruc tutan birisi yoxsul insanların çəkdiyi aclıq və susuzluq çətinliyini dünyada yaxından ləms edir və bu da öz növbəsində səbəb olur ki, yoxsulların onun üzərində olan tələblərini, mal haqlarını ödəsin.

İmam Rza (ə) “Nə üçün oruc başqa aylarda yox, məhz

1. Uyunu əxbari-Riza, c. 2, s. 104.

Ramazan ayında vacib edilmişdir?"- sualına cavab olaraq isə belə buyurur: Bu, Ramazan ayının başqa aylara münasibətdə daşıdığı üstünlüklərə görədir. Onların bəzisi bunlardır:

1. Quran məhz Ramazan ayında nazil olmuşdur;

2. Bu ayda Allah-taala haqq əhli ilə batil əhlini bir-birindən ayırd etmişdir. Necə ki Quran belə deyir: *"İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və haqqı batildən ayıran (Quran) ramazan ayında nazil edilmişdir"*.[1]

3. Qədr gecəsi bu aydadır, belə ki, o, min aydan daha üstün olub, hər bir hikmətli iş o gecə ayırd olunur. Bu gecə ilin əvvəli hesab olunaraq xeyir, şər zərər, fayda, ruzi, ölüm insan üçün təyin edilir. Elə buna görə, ona "Qədr gecəsi" deyilir.

Başqa bir yerdə o həzrətdən belə bir hədis nəql edilir: Əgər kimsə "Nə üçün insanlara təkcə Ramazan ayının orucunu -nə az, nə də çox- tutmaq əmr edilib?"- deyə soruşsa, cavabında belə deyilməlidir: "Bu, ona görədir ki, bu miqdarı həm zəif, həm də güclü insan yerinə yetirə bilir. Allah vacib olan əməlləri əksər insanların gücü çata biləcəyi çərçivədə təyin edər. Bu əsasla, gücü çatmayanların yükünü azaldaraq onlara icazə verər, gücü çatanları isə təşviq edər, belə ki, əgər istəsələr Ramazan ayından başqa aylarda da oruc tutmaqla Allaha yaxınlaşa bilərlər. Deməli, əgər oruc tutmaq bundan az miqdarda məsləhət olsaydı, onda Allah-taala o miqdarla kifayətlənərdi və əgər bundan çox miqdarda olsaydı, o zaman çoxa əmr edərdi".[2]

---

1. Bəqərə: 185
2. Uyunu əxbarir-Riza, c. 2, s. 116; iləluş-Şərai, c. 1, s. 270.

## Həccin hikmət və mədəniyyəti

***Həcc ziyarəti nə üçün vacib olub? İmam Rza (ə) səfərin qayda və ədəbləri barədə nə buyurub?***

İmam Rzaya görə (ə), həccin səbəbi Allah-taalanın hüzuruna yetişmək, Ondan rəhmət, bağışlanma diləmək və günahlardan tövbə etməkdir. Allah evini ziyarət etmək istəyən birisi keçmiş günahlarına görə tövbə edib, gələcəkdə bir daha günah etməmək qərarına gəlməli və daim ibadət etməlidir. Həccə yollanan insanlar öz mallarının bir miqdarını sərf edir və səfərdə zəhmətə, çətinliyə düşürlər. Allah evinin ziyarətinə gedənlər cismani ləzzətlərin, nəfsani istəklərin ardınca getməməli, daim öz vaxtlarını ibadətlə keçirməli və insanı Allaha yaxınlaşdıran işlər görməklə müti olmalıdırlar. Onlar soyuqda və istidə Allahı anmalı və qorxu zamanı isə Onu unutmamalıdırlar və ya səfərə görə narahat olduqlarını dilə gətirməməlidirlər. Bundan əlavə, öz səfər yoldaşlarına və başqalarına münasibətdə sevgi ilə, mehribanlıqla davranmalı, kimsəyə zərər yetirməməli və Allahı unutmamalıdırlar.

Hacıların riayət etməsi gərək məsələlərdən biri də odur ki, onlar həcc zamanı daşqəlbli olmamalı və hamı ilə mehribanlıqla keçinməlidirlər. Həmçinin xəsis olmamalıdırlar, belə ki, bir adamın möhtac və ya zəif olduğunu müşahidə etsələr, ona yardım əli uzatsınlar.

Hacılar hamıdan öz ümidlərini üzməli, uzun-uzadı arzulardan uzaqlaşmalı, fəsaddan çəkinməli, bir-birlərinin hüquqlarına riayət etməli və hamının mənafeyini nəzərə almalıdırlar.

Hacılar Məkkədəki tacirlərlə gözəl bir şəkildə davranmalı, kimsəyə zərər vurmamalı, bacardıqları qədər ehtiyaclı insanların əlindən tutmalı, yoxsulların qayğısına

qalmalıdırlar ki, bununla da böyük mənəvi faydalara nail olub, Allah və Onun elçisini özlərindən razı salsınlar.[1]

## Quranla ünsiyyət

***Imam Rzanın (ə) Quranla ünsiyyəti nə şəkildə olub?***

İmam Rza (ə) hamını Quranı çoxlu şəkildə oxumağa tövsiyə və təşviq edərdi. O həzrət bu ilahi kitabı belə vəsf edirdi: "Quran Allahın möhkəm ipi və Onun insanı Cəhənnəmdən xilas edib Cənnətə aparan əmin yolu, vasitəsidir. Zaman keçdikcə köhnəlməz və dillər ondan bezməz, çünki o, xüsusi bir zaman üçün göndərilməmişdir, əksinə, o, hər bir insan üçün aşkar bir dəlil olub heç bir tərəfdən ona batil nüfuz edə bilməz. O, tərifə layiq hikmət sahibi Allah qatından göndərilmişdir".[2]

İmam Rzanın (ə) həyat tərzi, sözləri və bütün cavabları Qurana əsaslanır.[3] O həzrət Quranı Allahın kəlamı hesab edir, təkcə Qurandan hidayət tapmağı vurğulayır[4] və bütün hallarda ona sığınmağı tövsiyə edirdi. O belə buyururdu: "Hər zaman bir şeydən qorxsanız, Qurandan istədiyin yüz ayə oxu və sonra üç dəfə belə de: Allahummə-kşif ənniyəl-bəla".[5]

İmam Rzanın (ə) Quran oxumaq xüsusundakı sirəsi barədə nəql edilən proqram belədir:

1. İləluş-Şərai, c. 2, s. 404.
2. Uyunu əxbarir-Riza, c. 2, s. 130
3. Uyunu əxbarir-Riza, c. 2, s. 180-183; biharul-Ənvar, c. 49, s. 100 və 211.
4. Qurandan başqasından hidayət tələb etməyin. Yoxsa, azarsız. (ət-Tövhid, s. 224)
5. İbn Fəhd əl-Hilli, uddətud-Dai, s. 294.

1. Sübh namazından sonra Qurani-Kərimi açaraq onu üzündən oxuyardı;[1]

2. Axşam yatağına girərkən Quran ayələrini oxuyardı;[2]

3. İçərisində Cənnətdən və ya Cəhənnəmdən söz açılan ayəyə yetişərkən ağlayar və Allahdan Cənnət arzulayardı.[3]

## Quranın gündəlik oxunması

### *Quran oxumaq üçün hansı müntəzəm proqram tövsiyə olunur?*

Məsum imamların öz dostlarına davamlı tövsiyələrindən biri də Quran oxuyub ona əməl etmək idi. Belə ki, imam Sadiq (ə) belə tövsiyə edirdi: "Quran Allah tərəfindən öz yaratdıqlarına göndərdiyi əhdnamədir. Elə isə hər bir müsəlman bu ilahi əhdə nəzər salaraq hər gün ondan əlli ayə oxumalıdır".[4]

Qurandan əlli ayə oxunmasına edilən tövsiyə imam Rzanın (ə) buyuruğunda da qeyd olunan nüanslardan biridir. O həzrət belə buyurardı: "Yaxşı olar ki, insan sübh namazının təqibatından sonra Qurandan əlli ayə oxusun".[5]

Quranı necə oxumaq barədə imam Rza (ə) Peyğəmbərdən (s) belə bir kalam olduğunu nəql edərdi: "Quranı öz səslərinizlə gözəlləşdirin, çünki gözəl səs Quranın gözəlliyini daha da artırır".[6]

Quran ayələri üzərində düşünməyi də imam Rzanın (ə)

---

1. Kitabu mən la yəhzuruhul-fəqih, c. 1, s. 504.
2. Uyunu əxbarir-Riza, c. 2, s. 183.
3. Yenə orada.
4. «Əl-Kafi», c. 2, s. 609.
5. Tusi, təhzibul-Əhkam, c. 2, s. 138.
6. Uyunu əxbarir-Riza, c. 2, s. 69.

sirəsindən öyrənmək olar. Rəca ibn Zəhhak imamın Xorasana olan səfəri barədə hesabat verərkən o həzrətin səhər çağındakı hallarını belə xatırlayır: İmam gecənin üçdə biri öz yatağından təsbih (Subhanəllah), həmd (əl-Həmdu lillah), təkbir (Allahu əkbər), təhlil (La ilahə illəllah) və istiğfar (Əstəğfirullah) etməklə qalxardı. Gecələr öz yatağında çoxlu Quran oxuyardı. Elə ki, Cənnət və ya Cəhənnəm barədə olan bir ayəyə çatardı, ağlayar, Allahdan Cənnət diləyər və Cəhənnəmin odundan Ona sığınardı.[1]

## Gecə namazının cazibəsi

***Niyə gecə namazın qılınması tapşırılıb? Bu namaz imam Rzanın (ə) ibadətləri içində hansı yeri tutur?***

Bu suala verilə biləcək ən gözəl cavab imam Rzanın (ə) kəlamıdır: “Gecə namazı qılın, çünki bir mömin bəndə gecənin sonu ayağa qalxıb səkkiz rükət gecə namazı, iki rükək şəf, bir rükətsə vitr qılaraq yetmiş dəfə öz duasında istiğfar edərsə- Allahdan bağışlanma diləyərsə, bu zaman Allah onu qəbir və Cəhənnəm əzabından qoruyar, ömrünü uzadar və ruzisini isə çoxaldar”.[2]

İmam Rzaya görə (ə), gecə vaxtı içərisində namaz qılınan və namaz halında Quran oxunan evlər ulduzların yer əhlinə nur saçdığı kimi göy və onun sakinlərinə nur saçar.[3]

İmam Rza (ə) belə buyurardı: həzrət Zeynul-abidindən (dördüncü imam) soruşdular: “Nə üçün gecəni sübhədək ibadətlə keçirən adamların üzləri ağ və nuranidir?” O

1. Biharul-Ənvar, c. 73, s. 193.

2. İbn Fəttal, rövzətul-Vaizin, c. 2, s. 320.

3. Yenə orada.

həzrət isə belə buyurdu: Çünki onlar Allahla gizlicə minacat etdiklərinə görə O da onları öz nuru ilə örtmüşdür.[1]

İmam Rzanı Mədinədən Mərvə qədər müşayiət edən həmsəfəri onun ibadət tərzi barədə belə nəql edir: imam gecənin son üçdə biri çatan kimi öz yatağından təkbir, təhbih, təhlil və istiğfar deyərək durardı. Sonra dişlərini fırçalayıb dəstamaz alar və namaz qılardı. O həzrət bu zaman səkkiz rükət namaz qılardı və hər iki rükətdən bir salam deyərdi. İlk iki rükətdə həmd surəsini və üç dəfə ixlas surəsini oxuyardı. Daha sonra ayağa qalxar və iki rükət şəf namazını qılardı, belə ki, hər iki rükətdə həmd surəsini bir dəfə, ixlas surəsini isə üç dəfə oxuyar və ikinci rükətə gəldikdə qiraətdən sonra (həmd və ixlas surələrini oxuduqdan sonra) və rükudan əvvəl qunut tutardı. Salamları verib qurtardıqdan sonra vitr namazını qılmağa başlayardı, belə ki, onda bir dəfə həmd surəsini və üç dəfə ixlas surəsini oxuyardı. İxlas surəsindən sonra isə bir dəfə Fələq və Nas surələrini oxuyar və rükudan əvvəl qunut tutardı. Qunutda isə belə söyləyərdi: “Allahım, hidayət etdiklərinin içərisində bizi də hidayət et!...(Allahuməhdini fi-mən hədəytə)” Namazı bitirdikdən sonra təqibatı oxumaqla məşğul olardı. Fəcr (dan yeri) yaxınlaşarkən isə ayağa qalxar və iki rükət sübh namazının nafiləsini qılardı. Qaynağın bildirdiyinə görə, imam Rza (ə) gecə namazı ilə yanaşı Cəfəri-Təyyar namazını da qılardı.[2]

## Cəfəri-Təyyar namazı

***Cəfər Təyyar namazı necədir? Bu namazın əhəmiyyətli olmasının səbəbi nədir və imam Rza***

1. Uyunu əxbarir-Riza, c. 1, s. 282.
2. Uyunu əxbarir-Riza, c. 2, s. 183.

*(ə) bu namazı qılarmış?*

Hicrətin yeddinci ilində Cəfər ibn Əbutalib Həbəşdəki önəmli məmuriyyətindən dönərkən, həzrət Peyğəmbər (s) Cəfəri qucaqlayıb alnındakı səcdə yerini öpdü və bu səmavi hədiyyəni ona bəxş etdi, elə bir hədiyyə ki, sonradan Cəfəri-Təyyar namazı ilə tanındı. O həzrət bu namazın vəsfi barədə belə buyurdu: "Cəfər namazı dünya və onun içindəkilərdən daha yaxşı olub günahların bağışlanmasına gətirib çıxardır".[1]

İmam Rza (ə) həmişə Cəfəri-Təyyar namazını qılardı, belə ki, onu dörd rükət şəklində qılar və hər iki rükətdən bir salam verərdi.2 Cəfəri-Təyyar namazı iki təşəhhüd və iki salam olmaqla dörd rükətdir. Birinci rükətdə həmd surəsindən sonra Zəlzələ surəsi, ikinci rükətdə Adiyat surəsi, üçüncü rükətdə Nəsr surəsi, dördüncü rükətdə isə İxlas surəsi oxunur.

İmam Rza (ə) bu namazın qılınma keyfiyyəti barədə belə buyurur: "Hər bir rükətdə həmd və hansısa bir surəni oxuduqdan sonra on beş dəfə "Subhanəllahi vəl-həmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər" zikrini deyin. Bu zikri namazın hər bir rükətinin qeyd olunacaq altı hissəsində də on dəfə təkrarlayın: rüku, rükudan sonra, birinci səcdə, səcdədən sonra, ikinci səcdə, ikinci səcdədən sonra. Hər bir rükətdə oxunan zikrin cəmi 75 dəfə olmaqla bütün namazda 300 dəfə deyiləcəkdir".[3]

İmam Rza (ə) Şaban ayının on beşinci gecəsində edilən müstəhəb əməllərdən birini də Cəfəri-Təyyar namazı hesab edirdi.[4]

1. «Əl-Kafi», c. 3, s. 466.
2. Uyunu əxbarir-Riza, c. 2, s. 183.
3. İbn Tavus, cəmalul-Usbu, s. 247.
4. Uyunu əxbarir-Riza, c. 1, s. 293.

Qeyd etmək lazımdır ki, Əllamə Məclisi imam Rza (ə) və başqa imamların (ə) hərəmində olarkən edilməsi yaxşı olar qaydalardan biri də Cəfəri-Təyyar namazını qılmaqdır.[1]

## Duanın təsiri

***Duanın əhəmiyyəti barəsində imam Rzanın (ə) buyurduğunu bəyan edin.***

İmam Rzaya (ə) görə, dua möminin silahı, dinin bünövrəsi, yer və göyün isə nurudur.2 O həzrət həmişə öz səhabələrinə buyurardı: "Peyğəmbərlərin silahını əlinizə alın". Onlar "Peyğəmbərlərin silahı nədir?"- deyə soruşdular. İmam Rza (ə) isə belə buyurdu: "Dua".[3]

İmam Rza (ə) Peyğəmbərin (s) həzrət Musa (ə) barədəki önəmli bir sözünü belə izah edir: Musa ibn İmran belə buyurdu: "İlahi, Sən uzaqdasanmı ki, mən fəryad edim, yoxsa yaxındasan ki, mən pıçıldayım?". Allah isə belə buyurdu: "Mən məni anan, yad edən kəslə birgəyəm". Musa belə dedi: "İlahi, mən bəzən elə bir vəziyyətdə oluram ki, Sənin böyüklüyün, əzəmətin Səni anmağıma mane olur". Allah isə belə buyurdu: "Ey Musa, məni hər bir halda an, yad elə!".[4]

---

1. Biharul-Ənvar, c. 97, s. 137.
2. Uyunu əxbarir-Riza, c. 2, s. 37.
3. "Əl-Kafi", c. 1, s. 468.
4. Uyunu əxbarir-Riza, c. 1, s. 127.

## Dəyərləndirmə meyarı

***İslam dinində insanların dəyəri hansı ölçülərlədi?***

İslam dinində təqva insanın dəyərləndirilməsi üçün ən mühüm meyar hesab olunur. Məsum imamlar (ə) da, öz ən üstün fəzilətlərini təqvaya sahib olmaqda görürdülər. Bir kişi imam Rzaya (ə) belə dedi: "Yer üzərində ata baxımından səndən daha üstün kimsə yoxdur". İmam isə belə buyurdu: "Təqva mənim atalarımın ən üstün fəziləti idi və Allaha itaət onların ən gözəl payı, bəhrəsi hesab olunurdu".[1]

Başqa bir adam o həzrətə belə dedi: "And olsun Allaha, sən insanların ən üstünüsən". İmam isə o şəxsə cavab olaraq belə buyurdu: "Ey kişi, Allaha and içmə! Məndən daha üstünü o kəsdir ki, təqvası daha çox, Allaha itaəti isə daha artıq olsun". Quran belə buyurur: *"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır, ən çox təqvalı olanınızdır. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır".*[2]"[3]

## Sabahın fikrində olmaq

***İmam Rzanın (ə) ölüm və axirət barədə nəsihətin bəyan edin.***

İmam Rza (ə) belə buyurur: İnsan üçün ən qorxulu, vəhşətli yerlər üç yerdir:

1. Uyunu əxbarir-Riza, c. 2, s. 236.

2. Hucurat: 13

3. Uyunu əxbarir-Riza, c. 2, s. 236.

1. O zaman ki, doğulur və ana bətnindən çıxaraq dünyanı görür;

2. O zaman ki, ölür, axirəti və onun əhlini görür;

3. O zaman ki, yenidən dirilərək məhşərə çıxır və dünya həyatında görmədiyi qanunlar görür.

Allah-taala bu üç mərhələdə Yəhyaya salam verərək onun vəhşətini, qorxusunu aradan aparmış və belə buyurmuşdur: *"Ona doğulduğu gün də, öləcəyi gün də, (qiyamətdə) diriləcəyi (qəbirdən diri olaraq qaldırılacağı) gün də, salam olsun!"*.[1] İsa ibn Məryəm (ə) bu üç yerdə özü üçün əmin-amanlıq diləyərək belə dedi: *"Doğulduğum gün də, öləcəyim gün də, diriləcəyim (qəbirdən diri olaraq qaldırılacağım) gün (qiyamət günü) də (Allahdan) mənə salam olsun!"*.[2] [3]

İmam Rza (ə) ölüm barədə belə buyurur: İmam Sadiqə (ə) belə dedilər: "Ölümü bizim üçün vəsf elə!" O həzrət isə belə buyurdu: "Ölüm mömin üçün ən ətirli gül kimidir, belə ki, onu iyləyir, gözəl ətirli iyindən haldan gedərək yorğunluq və ağrıdan xilas olur. Ancaq kafir üçünsə əfi ilanın, əqrəbin sancması kimi və hətta ondan da daha pisdir".

İmamdan belə soruşdular: "Bəziləri deyirlər ki, ölüm mişarla, qayçı ilə doğranmaqdan, daşla vurulmaqdan, dəyirman daşının göz bəbəyi üzərində fırladılmağından daha çətindir. Siz necə düşünürsüz?". O həzrət belə buyurdu: "Bəzi kafir və günahkarlar üçün bu belədir. Bu cür adamların bu kimi çətinliklər çəkdiyinə şahid olmamısınızmı? Bütün bunlardan daha şiddətlisi isə axirət əzabıdır.

1. Məryəm: 15
2. Məryəm: 33
3. Xisal, c. 1, s. 107.

Çünki dünya əzabından da daha çətin və şiddətlidir". Onlar belə dedilər: "Elə isə nə üçün bəzi kafirlərin rahatlıqla can verdiklərinə şahid oluruq. Onlar gülə-gülə dünyalarını dəyişirlər. Bəzi möminlər də bu cürdür. Ancaq bəzi mömin və kafirlər ölüm zamanı bu kimi çətinliklərə məruz qalırlar. Niyə?". O həzrət onların cavabında belə buyurdu: "Mömin şəxsin o vəziyyətdəki rahatlığı, aramlığı tezkeçən bir savabdır. Ölüm anı çəkdiyi çətinlik isə onun günahlardan təmizlənməsinə səbəb olur ki, belə bir paklıqla axirət dünyasına daxil olsun və heç bir maneəsiz əbədi savaba layiq görülsün. Kafirin o vəziyyətdəki rahatlığına gəlincə, bu, ona görədir ki, bütün yaxşı işlərinin müqabilini, əvəzini tamamilə bu dünyada almış olsun. Axirətə daxil olanda isə əzabdan başqa heç nə ona nəsib olmasın. Kafirin ölüm ayağındakı çəkdiyi çətinlik onun əzabının başlanğıcıdır. Bu isə Allahın ədalətli olub kimsəyə zülm etmədiyinə görədir".[1]

## Günah etməmək

***Əksərimiz günaha aludə olan halda, İmam Rzaya (ə) təqlid edərək günahdan necə çəkinib və həyatımızı necə nurani edə bilərik?***

Günah və nəfsani istəklərə boyun əymək ən böyük zərər və ən təhlükəli bəla hesab olunur. Həm də mənəviyyatdan qaçış və batilə meyllənmə məsələsində təsirli rola malikdir. Belə ki, insan həqiqəti dərk etməkdən aciz olur. Əslində günah xəncəri qəlib gözünü kor edir və nəticədə cismin napak olmasına gətirib çıxardır.

İmam Rza (ə) öz babası imam Sadiqdən (ə) belə nəql edir ki, o həzrət belə buyurdu: "Bəzən günah bəndə ilə

1. Uyunu əxbarir-Riza, c. 1, s. 275.

Cənnət arasında yerlə göy qədər fasilə salır, ancaq bəndə bir çox günahlarından, ondan baş verən yanlış işlərdən peşiman olub Allah qorxusundan nalə ilə ağlayaraq özü ilə Cənnət arasında yaranan fasiləni o qədər azalda bilər ki, kirpikin gözün daxilindəki qaradan da daha yaxın olsun".[1]

İmam Rza (ə) Əbu Hənifənin imam Kazımla (ə) günahın mənşəyinə dair olan sual-cavabı barədə belə bir xatirə nəql edərək buyurur: Bir gün Əbu Hənifə imam Sadiqin (ə) yanından çıxaraq yolda imam Kazımla (ə) görüşür və o həzrətdən belə soruşur: "Ey oğlan, günah insandan nə zaman baş verir? O isə belə buyurur: Bu, üç cür təsəvvür edilə bilər: Ya Allahdan baş verir ki, bu da mümkün deyil. Bu, heç kəramət sahibi Allaha yaraşmaz ki, bəndəsini etmədiyi günaha görə cəzalandırsın. Ya Allah və bəndənin hər ikisindən baş verir ki, bu da mümkün deyil, çünki doğru olmaz ki, güclü bir şərik zəif bir şərikə zülm etmiş olsun. Ya da təkcə bəndədən baş verir ki, bu da belədir. Bu zaman əgər Allah onu cəzalandırsa, bu, onun işlədiyi günaha görədir və əgər onu bağışlasa, bu da onun kərəm və lütfünə görə olacaqdır".[2]

İmam Rza (ə) dəfələrlə insanları günah işləməməyə çağırmaqla yanaşı, günahkarları peşman olmağa, tövbə etməyə istiqamətləndirmiş və ilahi bağışlanmadan söz açmışdır. Hətta ruhu paklamaq üçün bəzi mübarək zamanlara işar edərək onlardan istifadə edilməsini qeyd etmişdir. O həzrət Allah elçisinin (s) sözünə əsaslanaraq cümə gününü bağışlanma üçün gözəl bir fürsət olduğunu qeyd etmişdir. O həzrət babası Peyğəmbərdən (s) belə nəql edir: "Cümə günü günlərin ağasıdır. Allah o gündə yaxşılıqları ikiqat artıraraq günahları isə aradan aparar. Dərəcələri

1. Uyunu əxbarir-Riza, c. 2, s. 3.

2. Uyunu əxbarir-Riza, c. 1, s. 138.

yüksəldər, duaları qəbul edər, qəmləri aradan qaldırar, böyük istəkləri isə həyata keçirər. Cümə günündə Allah-taala bir qrupu Cəhənnəmin əzabından azad edər. Kimsə cümə gününə hörmət edib onun haqqına riayət etsə, bu zaman Allaha vacib olar ki, onu Cəhənnəmin odundan xilas etsin. Əgər həmin adam cümə günü və ya onun axşamı dünyasını dəyişərsə, bu zaman şəhid kimi ölmüş olar. Qiyamət günü isə əmin-amanlıqda, aramlıqda olar. Digər tərəfdən, kimsə cümə gününün hörmətini qorumasa və onun haqqını zay etsə, o zaman Allah onu tövbə etmədiyi təqdirdə Cəhənnəmə daxil edər”.[1]

Həmçinin İbrahim ibn Əbu Məhmud imam Rzadan (ə) belə bir sual soruşmuşdur: “Peyğəmbərdən belə nəql edilir ki, Allah-taala cümə axşamları dünyanın səmasına enir. Bu barədə nə deyə bilərsiz?”. İmam Allahı cisim kimi qələm verən bu hədisin qondarma olduğunu, təhrifə məruz qaldığına reaksiya göstərərək buyurdu: “Allah onun sözlərini təhrif edənlərə lənət eləsin. And olsun Allaha, Peyğəmbər (s) belə bir söz deməyib. Əksinə, o həzrət belə buyurub: Allah-taala gecənin üçdə biri və habelə, cümə axşamı dünya səmasına bir mələk yollayar və o da “Allahdan nəsə istəyən kimsə varmı və ya Allahın onu bağışlaması üçün öz günahlarından tövbə edən birisi varmı? Ey xeyir axtaran adam, irəli gəl, ey şər ardınca olan, əl çək!”- deyə car çəkər. Həmin mələk dan yeri sökülənədək car çəkməyə davam edər, daha sonra isə səmadakı yerinə qayıdar”.[2]

1. ““Əl-Kafi””, c. 3, s. 414.

2. ət-Tövhid, s. 179.

## Salavat

***Salavatın təsiri, bərəkəti nədir? Salavat Allahla ünsiyyət və rabitəni necə yaradır?***

İmam Rzaya (ə) görə, salavat Allah tərəfindən olanda "rəhmət", mələklər tərəfindən olanda "salam", "paklıq", möminlər tərəfindən olanda isə "dua" deməkdir.[1] O həzrətdən nəql edilən hədislərdə salavatın diqqət edilməsi gərəkən bəzi təsirlərinə işarə edilmişdir:

1. Öz günahlarının kəffarəsini verə bilməyən adam Məhəmməd (s) və onun ailəsinə salavat göndərməlidir ki, bu da onun günahlarını aradan aparar.[2]

2. Məhəmməd (s) və onun ailəsinə salavat göndərməyin Allah yanında təkbir və təhlil qədər savabı vardır.

3. Hər kəs sübh və məğrib namazından sonra, yerindən durmazdan və kimsə ilə danışmazdan qabaq Allah rəsuluna salavat göndərərək "İnnəllahə və məlaikətəhu yusallunə ələn-nəbiy, ya əyyuhəlləzinə amənu sallu əleyhi və səllimu təslima. Allahummə salli əla Muhəmmədinin-nəbiy və zurriyyətih."- deyərsə, Allah-taala onun yüz diləyini qəbul edər, belə ki, yetmişi dünyaya, otuzu isə axirətə aid olar.[3]

## Şükür etmə

***İnsanın Allaha çoxlu şükür etməsi niyə bu qədər tövsiyə olunub?***

Nemətə qarşı şükür etmək, təşəkkür ruhiyyəsi böyük ilahi şəxsiyyətlərin xüsusiyyəti hesab olunur. Elə buna

1. Səduq, səvabul-Əmal, c. 1, s. 187.
2. Uyunu əxbarir-Riza, c. 1, s. 294.
3. Yenə orada.

görə, Allah Loğmana hikmət bəxş edən zaman bu nemətə görə şükür etməsini ona tövsiyə etmişdi.[1] İmam Rza (ə) çox zaman bu şeri oxuyardı: “Hər zaman bir xeyir, nemət sənə nəsib olsa, qəflət, qürur səni yaxalamasın. Lakin şükür üçün belə de: Allahummə səllim və təmmim (İlahi, bizə verdiyin nemətləti sağlamlaşdır və tamamla)”.[2]

İmam Rza (ə) öz dostlarına da şükür etməyi, xüsusən də, bu əməli səcdədə görmələrini tövsiyə edərdi. O həzrət Süleyman ibn Həfsə bir məktub yazıb ona bu şəkildə şükür səcdəsi etməsını göstəriş vermişdir: Şükür səcdəsində yüz dəfə “Şukrən, şukrən” de və əgər istəsən, onun əvəzinə “Əfvən, əfvən” de.[3]

İmam Rza (ə) belə buyurardı: Bəndənin vacib namazdan sonrakı səcdəsi Allahın ona ibadət etmək üçün müvəffəqiyyət nəsib etməsinə görə şükür etməkdir. Üç dəfə belə deməlidir: “Şukrən lillah”. Ravi deyir: Mən o həzrətə belə dedim: “Şukrən lillahın mənası nədir?”, o isə belə buyurdu: “Yəni mənə ibadət, bəndəlik müvəffəqiyyəti nəsib edən Allaha şükür edirəm. Allaha Şükür edirəm ki, Onun mənə vacib etdiyi əməlləri yerinə yetirə bilmişəm. Şükür savabın artmasına səbəb olar və əgər ibadətin savabı nafilə namazları ilə tamamlanmasa, o zaman şükür səcdəsi ilə tamamlanar.”

Şükür etmədə bir neçə maraqlı məqam var:

1. Şükür bütün fəzilətləri, o cümlədən, bizim heç bir şeyə malik olmadığımızı özündə toplayır. Belə bir neməti qoruma uğrunda cəhd və onun aradan getməsinə mane olmaq Allahın şükrünün təzahürü hesab olunan namaz

1. Səvabul-Əmal, c. 1, s. 187.

2. Uyunu əxbarir-Riza, c. 2, s. 178.

3. Kitabu mən la yəhzuruhul-fəqih, c. 1, s. 332.

vasitəsilə həyata keçir;

2. Şükürün faydası təkcə şükür edənin özünə qayıdır. Necə ki naşükürlüyün zərəri Allaha yox, naşükürlük edənin özünə qayıdır,1 çünki Allah mütləq şəkildə ehtiyacsızdır və onun heç bir şükürə ehtiyacı yoxdur. O, həmdə buna layiqdir, istər kimsə ona şükür etsin, istərsə də etməsin. Deməli, naşükürlük ona heç bir zərər yetirə bilməz.[2]

3. Nemətə qarşı şükür etmək onun artmasına, çoxalmasına səbəb olur. Həm də şüküretmənin faydası insana qayıdır, çünki şükür nemətin çoxalmasına gətiirb çıxardır. Allah belə buyurur: *"Kim (Allahın nemətlərinə) şükür etsə, özü üçün şükür edər. Kim nankor olsa, (bilsin ki) Allah onun şükürünə möhtac deyildir"*.[3]

## Mötəbər zikrlər

***İmam Rzanın (ə) rəftar və sözlərində xüsusi zikrlərin deyilməsinə tövsiyə olunubmu?***

Bu sualın əhəmiyyəti Əhli-beyt (ə) hədislərində mötəbər şəkildə qeyd olunan zikrlərlə əlaqədardır. Buna görə, imam Rzanın (ə) kalamlarında mövcud olan bəzi zikrlərə işarə edirik:

1. Ya Rauf, Ya Rahim; Atamı yuxuda belə buyurduğunu gördüm: "Ey oğlum, hər vaxt hansısa bir çətinliklə üzləşsən, bu zikri çoxlu de: Ya Rauf, Ya Rahim."[4]

---

1. Kim (Allahın nemətlərinə) şükür etsə, özü üçün şükür edər. Kim nankor olsa, (bilsin ki) Allah onun şükürünə möhtac deyildir, (özlüyündə) şükürə (tərifə) layiqdir! (Loğman: 12)

2. əl-Mizan, c. 16, s. 215.

3. İbrahim: 7.

4. İbn Tavus, Məhcud-Dəəvat, s. 333.

2. Bismillahir-rəhmanir-rəhim; Bu zikr ismi-əzəmə gözün qarasının onun ağına olan yaxınlığından da daha yaxındır.[1]

3. Ayətül-kürsi; Hər kəs ayətül-kürsini yüz dəfə oxuyarsa, bütün ömrü boyu Allaha ibadət etmiş kəs kimi olar.[2] Hər kəs namazdan sonra ayətül-kürsini oxuyarsa, onda heç bir sancan heyvan və ya həşərat ona zərər vurmaz.[3]

4. La ilahə illəllah; Bu zikr Allah yanında olduqca çox dəyərə, məqama sahibdir. Bu əsasla, kimsə onu ixlasla dilinə gətirərsə, Cənnətə layiq görülər və kimsə onu yalandan dilinə gətirərsə, bu zaman onun dünyada malı, canı amanda olar və axirətdə isə Cəhənnəmə göndərilər.[4]

5. La ilahə illəllahul-məlikil-həqqil-mubin; Hər kəs gündə yüz dəfə bu zikri deyərsə, Allah-taala ona mal-dövlət bəxş edər və yoxsulluğu, fəlakəti isə ondan uzaqlaşdırar. Həm də Cəhənnəm odunu ondan uzaqlaşdıraraq onu Cənnət yoluna doğru istiqamətləndirər.[5]

6. La həvlə və la quvvətə illa billah; Hər zaman Allah kimsəyə nemət bəxş edərsə, onda Allaha həmd etməli, ruzisi azalarsa, onda Allahdan bağışlanma diləməli və qəmgin olarsa, onda “La həvlə və la quvvətə illa billah” zikrini deməlidir.[6] Hər kəs “La həvlə və la quvvətə illa billah” zikrini deyərsə, 99 bəla ondan uzaqlaşar, belə ki, onların ən sadəsi boğulmaq və təngnəfəslikdir.[7]

---

1. Məhcud-Dəəvat, s. 317.
2. Uyunu əxbarir-Riza, c. 2, s. 65.
3. Səvabul-Əmal, s. 101.
4. ət-Tövhid, s. 23.
5. Əmali Tusi, s. 279.
6. Uyunu əxbarir-Riza, c. 2, s. 46.
7. Məkarimul-Əxlaq, s. 360.

7. Bismillahir-rəhmanir-rəhim, la həvlə və la quvvətə illa billahil-əliyyil-əzim; Kim məğrib və sübh namazlarından sonra heç bir şey danışmadan bu zikri yeddi dəfə söyləsə, Allah-taala yetmiş növ bəlanı ondan uzaqlaşdırar, belə ki, onların ən sadəsi cüzam, bərəs (albinizm), padşah zülmü və şeytan hiyləsidir.

8. Kimsə sübh namazından sonra yüz dəfə "Bismillahir-rəhmanir-rəhim, la həvlə və la quvvətə illa billahil-əliyyil-əzim" zikrini söyləsə, bu zaman ismi-əzəmə gözün qarasının onun ağına olan yaxınlığından da daha yaxın olar. Doğurdan da, ismi-əzəm bu sözlərin içərisindədir.[1]

9. Hüseyn ibn Abdullah ibn Cündəb bir məktub göstərərək belə dedi: Atam imam Rza (ə) üçün belə yazmışdı: Qurban olum sənə, mən qocalmışam, daha əvvəllər edə bildiyim bir çox işləri indi görməyə gücüm yoxdur. Çox istərdim ki, məni Allaha yaxınlaşdıran, mənim düşüncəmi, elmimi artıran bir şey mənə öyrədəsiniz". İmam isə cavabında belə yazmışdı: "Sənin üçün bir məktub yazmışam, onu oxu və dərindən düşün. O məktubda Allahın şəfa vermək istədiyi qul üçün şəfa, hidayət etmək istədiyi qul üçün isə hidayət var. Bu zikri çoxlu de: Bismillahir-rəhmanir-rəhim, la həvlə və la quvvətə illa billahil-əliyyil-əzim".[2]

10. Evdən çölə çıxmaq; Hər zaman evdən çölə çıxdıqda "Bismillah, aməntu billah, təvəkkəltu ələllah, maşa Əllah, la həvlə və la quvvətə illa billah" zikrini de! Əgər şeytan onun yolunu kəsərsə, bu zaman mələklər o adamı ondan uzaqlaşdırıb belə deyərlər: "Sənin bu kəs üzərində heç bir hakimiyyətin yoxdur, çünki o, Allahın adını dilinə gətirdi, Ona iman etdi və Ona sığınaraq belə dedi: Maşa Əllahu, la

1. Məhcud-Dəəvat, s. 317.

2. Biharul-Ənvar, c. 23, s. 313.

quvvətə illa billah”.[1]

11. Atam hər zaman evdən çıxmaq istəyərkən belə söyləyərdi: “Bismillahir-rəhmanir-rəhim, xərəctu bi-həvlillahi və quvvətih, la bi-həvli və quvvəti, bəl bi-həvlikə və quvvətikə ya Rəbbi mutəərrizən bihi li-rizqikə, fə-innəni bihi fi-afiyəh”.[2]

12. Bazara daxil olmaq; Bazara daxil olan zaman belə deyilməlidir: “Subhanəllahi vəl-həmdu lillahi və la ilahə illəllahu vəhdəhu la şərikə ləh, ləhul-mulku və ləhul-həmd. Yuhyi və yumit və huvə həyyun la yəmut. Biyədihil-xeyru və huvə əla kulli şey-in qədir”. Allah bu zikri deyən kəsə bütün yaradılışlarının sayı qədər mükafat bəxş edər.[3]

13. Sehrə qarşı; İmam Rzadan (ə) “Sehr nədir?”- deyə soruşdum, o həzrət isə belə buyurdu: “Sehr və cadunun həqiqəti var, adama ziyan vura bilir. Hər zaman sehrə məruz qalsan, sənə sehr edilsə, onda əlini üzünün müqabilinə gətir və belə söylə: Bismillahil-əzim, bismillahil-əzim, Rəbbil-ərşil-əzim, illa zəhəbət vən- qərəzət”.[4]

14. Gözdəyməyə qarşı; İmam Rzadan (ə) “Gözdəymə adlı bir şey həqiqətən varmı?”- deyə soruşdum, o həzrət isə belə buyurdu: “Bəli, var. Hər zaman sənə göz dəyərsə, əlinin içini üzünün müqabilinə yaxınlaşdıraraq həmd, ix-las, fələq və nas surələrini oxu və sonra hər iki əlini üzünə çək. Bu zaman Allah səni onun zərərindən qoruyacaq”.[5]

15. Həzrət Zəhranın təsbehi; İki qardaş Peyğəmbərin (s) yanına gələrək dedilər: “Ay Allahın elçisi, ticarət məqsədi

1. Təbərsi, məkarimul-Əxlaq, 282.
2. Uyunu əxbarir-Riza, c. 2, s. 6.
3. Yenə orada.
4. Məkarimul-Əxlaq, s. 474.
5. Yenə orada.

ilə Şama getmək niyyətindəyik. Bizə bir dua öyrət". O həzrət isə belə buyurdu: "Hər zaman bir mənzildə, dayanacaqda durub işa namazını qıldıqdan sonra yatmaq istəsəniz, Zəhranın təsbehini və ayətül-kürsini oxuyun. Bu zaman hər bir zərərdən amanda qalarsız". O iki qardaş Mədinədən çıxdıqları zaman bir neçə nəfər onların ardınca getdilər. Onlar bir mənzildə durduqdan sonra oğrular o iki cavan tacirin hansı vəziyyətdə olduqlarından xəbərdar olmaq üçün azyaşlı bir uşağı onların yanına yolladılar. Həmin uşaq məsələni öyrənərək geri qayıdıb oğruları vəziyyətdən xəbərdar etdi. O iki tacir namaz qıldıqdan sonra həzrət Zəhranın təsbehini deyib yatdılar. Həmin uşaq tacirlərin yerini oğrulara göstərmək üçün yenidən geri qayıtdı, ancaq bu dəfə onların ətrafına çəkilmiş bir divarla rastlaşdı. Uşaq yenidən oğruların yanına gələrək dedi: "Onların ətrafına bir divar çəkilib, onların yanına getmək mümkün deyil". Oğrular isə belə dedi: "Allah sənin abrını aparsın! Sən qorxudan yalan danışırsan". Oğrular öz yerlərindən qalxaraq onların yanına getdilər. Ancaq bu zaman yüksək bir divarla üzləşdilər və kimsəni orada müşahidə etmədilər. Növbəti gün oğrular sübh namazı vaxtı onların yanına gəlib "Dünən siz harada idiniz?"- deyə soruşdular. O iki tacir isə belə dedi: "Biz elə burada idik və yerimizdən də hərəkət etməmişdik". Oğrular yenə "Biz gəldik və burada yüksək bir divarla üzləşdik. Nə baş verir? Hadisəni bizə də söyləyin."- deyə soruşduqda, o iki cavan tacir onların sualına belə cavab verdi: "Biz Allah elçisinin yanında idik. O həzrət, zəhranın təsbehini və ayətül-kürsini bizə öyrətdi. Biz də o həzrətin buyuruğu əsasında əməl etdik". Bu zaman oğrular belə dedi: "Rahat olun! And olsun Allaha, daha sizi təqib etməyəcəyik və heç bir oğru da sizə zərər vura bilməz".[1]

1. Məkarimul-Əxlaq, s. 292.

# *Üçüncü fəsil: Özünə qarşı münasibət*

## Şəxsiyyətin önəmliyi

***İnsanın və xüsusən də bir cavanın şəxsiyyətli olmasının həyatında nə təsiri var? Və şəxsiyyətsiz olarsa, hansı problemlərlə üzləşər?***

“Şəxsiyyətlik” insanda, xüsusən də cavanlarda mənliyini dərk etmə və dəyərləndirmə qabiliyyətini inkişaf etdirir. Şəxsiyyətlik nisbətən səbatlı hisslərdən xarakterizə olaraq, “Mən kiməm?”, “Nə üçün dünyaya gəlmişəm?”, “Gərək kim olam” sualları ilə fərdin özünə bağlıdır. Başqa sözlə şəxsiyyət fərdin özü ilə, Allahla, təbiət və cəmiyyətlə rabitəsinin nizamlanması deməkdir.

## Şer:

*Agah et məni nədir “Mən”*
*Qeyri müəyyən vücuda olsa işarə*
*Mən kəlməsi ilə olar ifadə*
*Həqiqət gər olsa müəyyən*

*Sən ifadə edərsən ona "Mən"*
*Sənlə mən deyilik vücudun zatı*
*Biz olmuşuq vücud ətrin qabı*
*Hamı ruhların olub çırağı*
*Çölə nuru verən Çıraqdır*

Şəxsiyyətsizlik çox vaxt insanın özünü dərk edə bilməməyi, həyatının hədəfsiz olması, dünyada rolunu tapmaması və sonda nə ilə üzləşdiyini bilməyəndə üzə çıxır. İnsanda məyusluq, inamsızlıq olarsa, cəmiyyətdən uzaqlaşıb təkliyi seçəcək, fəaliyyət göstərmək əvəzinə depressiya düşəcək, özünü dərk edərək müsbət şəxsiyyət formalaşdırmaq əvəzinə, özün itirib şəxsiyyətsizlik böhranına düşüb idealları yoxa çıxacaq.

İmam Rza (ə) məşhur sözündə şəxsiyyətsizlik probleminə toxunaraq buyurur ki, bir kəs də beş xislət olmazsa, dünya və axirətdən ona bir ümid qalmaz: "Özünü bağlıya biləcək möhkəm əqidəsi, rəftarında mehribançılıq, xasiyyətində sabitliyi, ədəbli olması və Allah xofu".[1]

## Təfəkkür

### *İmam Rza (ə) ağıl və zəkanı necə dəyərləndirir?*

Ağıl Allah-talanın bəndələrinə bəxş etdiyi nemət, qiymətli sərvət, ən gözəl dost və məsləhətçi, insanın söykənə biləcəyi arxa və batini peyğəmbəridir. İnsan əqli fəaliyyət növünə uyğun olaraq nəzəri və əməli qisimlərinə bölünür. Əqlın nəzəri sahəsi aləmdə varlığın isbatı ya inkarı haqda, başqa sözlə həqiqətlərin kəşfi barədədir, əməli ağıl isə əməllərin gərəkli olub, olmaması sahədə hökm

1. "Tuhəf əl-Uqul" s. 446

irəli sürür. Əməli əql əxlaqi xüsusiyyətləri təzminat edib, insan iradəsini və meyllərini istiqamətləndirir.

İnsanın həyatında ağıl hidayət rolunu ifa etdiyi üçün imam Rza (ə) buyurub: "Hər bir kəsin dostu onun ağlı, düşməni isə onun nadanlığıdır."[1]

Təfəkkürə adət etmək zəruri olduğu üçün İslam təlimlərində təfəkkür etmək ibadətdən sayılıb. Hamı dolaşıq, çətin məsələlərlə üzləşərək fikrindən istifadə edib yol tapmağa meyllidir. Təfəkkür dedikdə bir məsələnin həlli yolunda fikirləri biri-biri ilə müqayisə edib nəticə çıxartması nəzərdə tutulur.

Əqlin özəl xüsusiyyətlərindən də biri təhlil və detallaşdırmadır, məsələn, düz sözü yalan sözdən, zəifi möhkəmdən, məntiqlisini məntiqsizdən ayırmaq kimi. Günlərin birində İbni Səkkit imam Rzadan (ə) sual etdi: “Bu gün insanlara (Allah tərəfindən) yol göstərən nədir ?” İmam buyurdu: “Ağıldır, onunla Allaha düz danışan tanınıb təsdiq və onunla da Allaha yalan danışan tanınıb inkar olunur.” Ibni Səkkit dedi: “And olsun Allaha ki düz cavab elə budur.”[2]

Ən üstün ibadət Allah və onun qüdrəti haqda təfəkkür etməkdi. Xilqət aləmində təfəkkür etmək,  insana Allahı tanımağa yol acır. Imam Rza (ə) buyurmuşdur: "İbadət namazın, orucun çox olması ilə deyil. Ibadət Allahın işləri barədə təfəkkür etməkdir."[3]

---

1. “Əl-Kafi” c. 1 s. 11
2. “Tuhəf əl-Uqul” s. 450
3. “Əl-Kafi” c. 2 s. 52

## Ağıl sahibin nişanələri

***Hansı əlamətlə ağıl sahibini tanıyıb, özümüzü onunla müqayisə edə bilərik?***

Imam Rza (ə) buyurub: On xislət olmayınca müsəlmanın ağlı kamilləşməz. 1- Ondan xeyir umulsun, 2- onun şərindən amanda qalsınlar, 3- ona olan az xeyri çox bilsin, 4- özünün çox xeyrin az bilsin, 5- kömək üçün olan müraciətlər onu yormasın, 6- ömrü boyu elm öyrənməkdən yorulmasın, 7- Allah yolunda kasıbçılıq, Allahdan qeyrisinin yolunda olan sərvətdən daha sevimli olsun, 8- Allah yolunda zillət, zalımın yolunda olan izzətdən daha sevimli olsun, 9- Kölgədə qalması şöhrətdən daha xoş olsun. İmam sonda buyurdu: «Amma onuncu xislət çox önəmlidir." Dedilər: Nədir o! İmam buyurdu: "Gördüyü hər bir şəxsə qarşı "O, məndən yaxşı və daha təqvalıdır" – desin. Çünki, insanlar iki dəstədir: Bəziləri doğurdan da ondan üstün, bəziləri isə ondan daha pis və şərdilər. Qarşılaşdığı kəs ondan daha pis və şər olarsa, belə desin: "Olsun ki, onun üstün cəhəti batinindədir və ona batində olması məsləhətdir, mənim xeyrimin zahirdə olması isə mənə ziyandır." Qarşılaşdığı kəs ondan daha üstün və təqvalı olarsa təvazökarlıq etsin ki, ona bənzəyə bilsin. Belə edən kəsin məqamı ucalar, əməlləri saflaşar, yaxşı insan kimi yadda qalar və öz zəmanəsinin hörmətli şəxsinə dönər."[1]

## Təvəkkül

***Allah-tala hamını ona təvəkkül etməyə çağırır. Təvəkkülün mənası nədir? İmam Rzanın (ə) Qu-***

1. "Tuhəf əl-Uqul" s. 446

***ran ayəsi barədə söylədiyini bəyan edin.***

İnsan öz həyatında kiməsə güvənib, çətin anlarda ondan kömək almalıdır. Bəllidir ki, bu iş üçün yalnız Allah yarayar, ancaq Allaha güvənib həyat çətinliklərində ondan kömək almalıyıq.

Təvəkkülün mənası budur ki, insan mənfəəti, ziyanı, nailiyyəti, ya məhrumiyyəti digərlərin əlində görməsin və bu səbəbdən insanlardan ümidini kəssin. Mömin bir kəs işlərin yalnız Allaha xətir edərsə, yalnız Allaha ümid bəsləyərsə və yalnız ondan qorxub, gözün ona tikərsə təvəkkül mərifətinə çatmış olar. Başqa sözlə təvəkkül insanın öz qüdrəti və qüvvətində əsir olmayıb, Allahın himayəsi və lütfünə ümidli olması deməkdir.

Təvəkkül məşvərətlə və bütün maddi imkanlarla yanaşı olmalıdır. Təvəkkül insana problemlərlə qarşılaşaraq inam, psixoloji və mənəvi üstünlük verir.[1]

Bir şəxs imam Rzadan (ə) *"... kim Allaha təvəkkül etsə O, ona kifayət edər..."* -ayəsi barədə sual etdi. İmam Rza (ə) buyurdu: Təvəkkülün dərəcələri var. Onlardan biri, təvəkkül edərkən Allah-tala qismətinə nə çıxardarsa, ona inanıb razı olasan və biləsən ki, O, sənin şəraitini nəzərə alıb sənin xeyrini istəyib və haqqında verdiyi hökm düzdür. Buna görə bütün işlərini ona tapşırıb, ona təvəkkül edəsən. Təvəkkülün digər dərəcəsi, elmin çatmadığı qeybi işləri (gələcəkdə baş verə bilən hadisələri) Allaha-talaya həvalə etməkdir.[2]

Allahın himayəsində olmaq, seçdiyimiz düz yolda ixlasla səy göstərməyimizə bağlıdır. Eyni halda Allahın varlığına, üzərimizdə tədbirinə inanıb, Onun iradəsinə təslim olma-

---

1. "Nümunə təfsiri" c. 3 s. 150

2. "Tuhəf əl-Uqul" s. 443

lıyıq. İmam Rza (ə) buyurur: "İmanın dörd hissəsi var: 1- Allaha təvəkkül, 2- Allahın qismətinə razılıq, 3- Hökmünə təslimçilik, 4- Bütün işlərin ona həvalə edilməsi."[1]

Allah bəndəsi dedi: "... Mən öz işimi Allaha həvalə edirəm ... beləliklə, Allah onu (o mömin şəxsi) onların qurduğu hiylələrin şərindən qorudu ..."[2]

Allaha təvəkkül etməyin nəticəsi iradəli, şücaətli olmaq və sonda bütün sahələrdə qalib gəlməkdir.

## Elm öyrənmək

***İmam Rza (ə) elmi və onu əldə etməyi necə dəyərləndirirdi?***

Quranda: "... Allah da sizdən iman gətirənlərin və (xüsusilə) elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah etdiyiniz əməllərdən xəbərdardır!"[3]

İki mömin dəstəsini təsəvvür etsək ki, dəstənin biri mömin, digəri isə elmli mömin olsalar, axırıncı dəstənin məqamı birinci dəstədən daha üstün olacaq. İmam Rzanın (ə) görüşündə müsəlman ağlının kamilləşməsi, "Ömrü boyu elm öyrənməkdən yorulmaması"-şərtinə bağlıdır. İmam təkidlə buyurardı: "Sizdən kim bilməsə öyrənməkdən xəcalət çəkməsin".[4]

İmam Rza (ə) buyurardı: «Elm xəzinədir və sual onun açarıdır. Sual edin Allahın sizə rəhməti gəlsin. Sual edilərkən dörd dəstə savaba nail olar: Sual edən, öyrədən, eşidən və bu dəstəni sevən."

1. "Tuful-uqul" s. 443
2. "Ğafir" 44 - 45
3. "Mucadilə" 11
4. "Uyunu əxbarur-Rza" c. 2 s. 44

## Dini anlayış

***Dinlə əlaqəmiz necə olmalı və imam Rzanın (ə) təlimlərində bu haqda nə tövsiyələr edilib?***

Din: İnsanların hidayəti üçün peyğəmbərlərə göndərilmiş əqidə, əxlaq və hüquqdan təşkil olmuş ilahi təlimlər toplusudur. Din, ictimai həyatla, Allah pərəstişini uzlaşdıran, bütün ictimai və fərdi əməllərdə insan üçün ilahi məsuliyyəti gətirən həyat tərzidir. Bu həyat tərzi insanın dünya və axirət səadətini təmin edir.

İnsanla dinin əlaqəsini nəzərdən keçirərkən, dini maariflənmə, dini təlimlər barədə düşünmək zərurəti irəli gəlir. Belə ki, Allah-talanın bəndəsinə ərməğan etdiyi ən böyük nemətlərdən biri, dində dərin biliyə sahib olmasıdır.[1]

İmam Rza (ə) həqiqi imanın nişanələrindən, dərin dini biliyi hesab edir.[2]

## Səbir

***Çətinliklərlə üzləşəndə nə etməliyik? Dini mətinlərdə imam Rzadan (ə) bu haqda hansı tövsiyələr gəlib?***

Həyatın çətinlikləri qaçılmazdı, bütün insanlar problemlərlə rastlaşır. Bu üzdən problemlərə yanaşma tərzi dərdləri, çətinlikləri sakitləşdirə bilir, hətta batini razılığa belə səbəb ola bilir.

İmam Rza (ə) çətinliklərə səbirli olmağı möminin nişanələrindən hesab edir. O, buyurur: «Üç xislətə sa-

---

1. “Amali Mufid” s. 158, قال رسول الله: اذا اراد الله بعبد خيرا فقهه فى الدين

2. “Tuhəf əl-Uqul” s. 446

hib olmayan şəxs, mömin sayıla bilməz. Allahdan, peyğəmbərdən və imamdan ənənəsi olsun. Allahdan olan ənənəsi sirr saxlamağıdır, peyğəmbərdən olan ənənəsi insanlarla dolanmaqdır, amma imamından olan ənənəsi çətin və ağır vəziyyətində səbir etməsidir.[1]

İmam Rza (ə) digər bəyanında, iman həqiqətinə çatmağın şərtlərindən birini bəlalar müqabilində səbirli olmağı hesab edir.[2]

Çətinliklər, problemlər insan həyatının bütün sahəsini əhatə edir. Gizlin deyil ki, insan hər hansı bir neməti ələ gətirmək istəyirsə, bunun problemsiz, başağrısız, xalis şəkildə olmasını istəyir. Amma buna baxmayaraq, həmişə nemətin xeyri ilə yanaşı onun sevincini acılaşdıran zəhməti, çətinliyi və bəzən də qəm-qüssəsi ola bilir.

## Məşvərət

***İslamda məşvərətə niyə təkid olunub? İmam Rzanın (ə) həyat tərzində məşvərət olubmu?***

Haqq olan İslam dinində məşvərətə təkid olunub, digərlərin təcrübəsindən istifadə etmək dəyərli fürsət hesab olunur. Həzrəti peyğəmbər (s) kamil ağıl sahibi, vəhy vasitəsi ilə Allahla əlaqəli olduğuna baxmayaraq, müxtəlif ictimai, hərbi, sülh və digər önəmli işlərdə öz əshabələri ilə məşvərət edərdi. Hətta bəzən onların rəyin qəbul edərkən çətinliyə düşsə də belə, bunu edərdi. Çünki, peyğəmbər (s) məşvərətdə müsəlmanlara örnək olsun deyə və məşvərətin bərəkətini mümkün olan ziyandan daha çox olduğunu

1. “Tuhəf əl-Uqul” s. 442
2. “Tuhəf əl-Uqul” s. 446

göstərməyə çalışırdı.[1]

İmam Rza (ə) buyurub: “Atamın ağlı heç kəsin ağlı ilə müqayisə ola bilməzdi, amma buna baxmayaraq, bəzən öz nökərləri ilə məşvərət edərdi. Ona, “Belə insanla məşvərət edirsən ?” – deyərdilər. Cavabın da buyurardı ki, “Allah-tala məsləhəti onun dili ilə də bəyan edə bilər.” Atamın əkin işlərində ona verilən məsləhətləri etməsi az baş verməyib.”[2]

Muəmmar bin Xəllad deyir: “İmam Rzanın (ə) Səd adında bir qulamı dünyasın dəyişmişdir. Həzrət “Mənə fəzilətli, əmanətdar bir kəsi göstər ki,  onu Sədin yerinə qoyum” - buyurdu. Təəccüblə dedim: «Mən sizə göstərim ?!” İmam (ə) qəzəblə dedi: “Allahın elçisi (s) əshabələri ilə məşvərət edərdi, sonra onu ciddiyyətlə yerinə yetirərdi.”[3]

## Özünü hesaba çəkmək

***İslamda insanın özünü hesaba çəkməsi tövsiyə olunub. Özünü hesaba çəkməyin sirri nədədir?***

Dini övliyalar bizlərə yol göstəriblər ki, özümüzü hesaba çəkək və qiyamət günündə bizi hesaba çəkməmiş, öz hesabımızı aparaq.[4]

İmam Rza (ə) buyurub: «Gözəl ağıl odur ki, insan onunla özün tanısın.”[5]

İmamın bu sözü özünü hesaba çəkməyin ya özünütəhlil etməyin əhəmiyyətini göstərir: «Kim özün hesaba çəksə

1. “Nümunə təfsiri” c. 20 s. 463
2. “Biharul-ənvar” c. 72 s. 101
3. Həmin
4. Yenə orada.
5. “ƏL İdadul-qəviyyə” s. 292

fayda aparar, kim özün unutsa ziyanın çəkər, kim işlərin pis aqibətindən nəfsin qorxutsa, əmin-amanlıqda olar, kim digərlərin aqibətindən ibrət alsa, öz işlərində gözüaçıq olar, kim gözüaçıq olarsa, işlərin nə ilə bitəcəyin dərk edər, kimin dərki çoxalarsa alim olar."[1]

Şübhəsiz ki, insan özün hesaba çəkərsə, şəxsiyyətinin gizlin yönlərini aşkar edər və nəticədə özünə etimadı çoxalar. Çünki nöqsanları kəşf etdiyi üçün aradan aparmağa asan olur.

## Rəzil sifətlərdən qorunmaq

***Şəxsiyyətimizi hansı mənfi xüsusiyyətlərdən qorumalıyıq?***

Hər bir mömin gözəl sifətlərə sahib olmaqla yanaşı, rəzil və iyrənc sifətlərdən də uzaq olmalıdır. Hədislərin birində imam Rza (ə) xudbinliyi və təkəbbürlüyü əməlləri puç edən amillərdən bilmişdir. Əhməd bin Nəcm imam Rzadan (ə) əməlləri puç edən xudbinlik və təkəbbürlük barədə sual etdi. İmam (ə) buyurdu: "Xudbinliyin dərəcələri var; bəzən xudbinlik pis əməli gözəl cilvə edir, insan onu yaxşı sanır və ondan xoşu gəlir, bəzən isə iman gətirdiyinə görə Allaha minnət qoyur, halbuki Allahın ona minnəti var.[2]

İmam Rza (ə) digər dörd rəzil sifətləri bəyan edir ki, tanıdıqdan sonra keçirdiyimiz hissləri kontrol etməklə onlardan uzaq ola bilərik. İmam buyurur: "Paxıla asayiş, həsəd edənə ləzzət, ovqatı təlx olmuşun vəfası, yalançının da mürüvvəti yoxdur."[3]

1. Həmin
2. "Tuhəf əl-Uqul" s. 444
3. "Tuhəf əl-Uqul" s. 450

## Həyatın şirin və acı anları





***Hər insanın həyatında pis və yaxşı günləri olur. İmam Rzadan (ə) örnək alaraq, həyatın şirin və acı anlarını necə keçirək?***

Suala cavab verməkdən ötrü Əhməd bin Ömər və Hüseyn bin Yəzidin hadisəsini nəql edirik:

İmam Rzanın (ə) hüzuruna yetişib dedik: «Bizim Fəraxda günümüz yaxşı keçirdi, amma indi vəziyyətimiz yaxşı deyil. Allahdan istə ki xoş günlərimizi bizə qaytarsın." İmam buyurdu: "Padşahlar kimi olmaq istəyirsiz? Tahir və Hərsəmə kimi olmaq arzusundasız? Başqa məzhəbdə olmaq istəyirsiz?" Dedik vallah yox, bütün dünyaya sahib çıxsaq da, amma məzhəbimizi əldən verməyə razı deyilik. İmam buyurdu: "Allah-tala buyurub ki, *"Siz, ey Davud ailəsi! (Allaha) şükranlıqla itaət edin! (Bu nemətə şükür edin!) Bəndələrimdən (nemətlərimə) şükür edəni azdır!"*.[1] Allaha xoş güman olun, çünki kim hansı gümanda olarsa, Allah-tala onunla gümanına uyğun rəftar edər, kim az ruziyə qane olarsa, Allah-tala da onun az əməlin qəbul edər, az halala qane olanın yükü yüngül, ailəsi nemət içində olar və Allah-tala onu dünyanın dərdinə də, əlacına da agah edər, dünyadan əmin-amanlıqla son mənzilinə (cənnətə) yola salar."[2]

Bizim dünya həyatına münasibətimiz imanımıza təsirlidir. Sözlərinin birində imam Rza (ə) buyurub: «من اصبح امنا فی سربه معافی فی بدنه و عنده قوت یومه فکانما حیزت له الدنیا بحذا فیها» "Kim sağlam, asudə və əlində ruzisi səhərin açarsa, sanki bütün dünyanı ona veriblər."[3]

---

1. "Səba"-13

2. "Tuhəf əl-Uqul" s. 448

3. "Mən La Yahzaruhul-fəqih" c. 4 s. 420

# İş və zəhmət

## *İmam Rzanın (ə) iş və işin ədəbləri haqda baxışı necədir?*

Dini təlimlərdə işlə, zəhmətə dəyər verilib, bekarçılıqla, tənbəllik isə pislənib. Ailənin rifahı üçün çalışan şəxs, cihad edənə bənzədilmişdir. İmam Rza (ə) buyurur: Ailəsi üçün işləyən şəxsin savabı, Allah yolunda cihad edənin savabından daha çoxdur.[1] Bəli, imamın nəzərincə ailəsinin xərci üçün zəhmət çəkən şəxsin savabı, Allah yolunda cihad edənin savabından çoxdur.

*Yar yarından istəyir pərişanlığın*
*Pərişan halda istəməz durğunluğun*
*Boş deyil şahın əli, işsiz deyil*
*Zarısa sağlam əgər yoxdur dəlil*
*Bu səbəbdən "Və huvə fi şən"[2] ayəsin*
*Söylədi Rəhman ki, xaliq itsin yəqin*
*Çıxmayınca son nəfəs var axtarış*
*Gül, bu yolda durmadan dartın, çalış[3]*

Ən yaxşı sərvət insanın abrın, hörmətin aparmayan maldır.[4] İmam, öz əshabələrinə Allahdan pak ruzi istəməyi, ticarətin, bazarın ədəblərini öyrədirdi. Onlardan bəziləri ibarətdir:

1-Ticarətin əsası:

---

1. "Biharul - ənvar" c. 75 s. 338
2. Ər Rəhman - 29
3. Cəlaləddin Rumi, Məsnəvi, 1819-dan, 1822-ci beytə kimi
4. "İdadul-qəviyyə" s. 292

Alan da, satan da beş şeydən çəkinməsə alış-veriş etməməlidir. Sələm, and, malın eybin gizlətmək, satarkən malı tərifləmək, alarkən malı pisləmək.[1]

2- Namazı təxirə salmamaq:

Ticarətlə məşğul olduğun zaman, namazın vaxtı daxil olarsa, işin səni namazdan saxlamasın. Allah-tala buyurub: *O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz...*[2] Onlar, iş başında olarkən namazın vaxtı daxil olduq da, işi tərk edib namaza durardılar. Buna görə də, namazlarının savabı heç bir işi olmayaraq vaxtında namaz qılanlardan daha çoxdur.[3]

3- Sələmdən qaçmaq:

Sələmin haram olma səbəbi, (borc kimi) gözəl işlərin tərk olmasına, sərmayənin məhvinə, hamının faizə üz tutmasına, yaxşı işlərin unudulmasına xatirdi. Bütün sayılanlar ictimai fəsadlarla nəticələnir və borca pul alana zülm olması ilə yanaşı iflas olur.[4]

## Xərcdə israfa yol verməmək

***Məişətimizdə iqtisadiyyatı tənzimləmək üçün hansı yolu seçək? Ev və ailəmizə çox xərc etməyimiz israf sayılırmı?***

Məişətin qənaət əsasında tənzimləməsi düz seçimdir. İmam Rzanın (ə) sözü həmişə yadımızda olsun ki, “Kim Allahın az ruzisinə qane olsa, Allah-tala da onun

1. “Fiqhur-Rza” s. 250
2. “Nur” -37
3. “Fiqhur-Rza” s. 250
4. “Vəsailuş-şiə” c. 18 s. 121

az əməlinə razı olar”.[1] Məişətin tənzimində artıq xərcdən və simiclikdən pəhriz edib, ailənin, evin xərcində həddi aşmamaq imam Rzanın (ə) həyat tərzidir. Əbbasi adında bir şəxs deyir: “İmam Rzadan (ə) ailə xərci barədə sual edəndə buyurdu ki, xoşagəlməz iki yolun ortasını tut. Dedim: “Xoşagəlməz iki yol hansıdır?”. Həzrət *“O kəslər ki, xərcliyən zaman nə israf edərək həddi aşallar, nə də simiclik göstərərək həddən aşağa yenəllər, bu iki yolun arasında orta həddi tutallar”*.[2] - ayəsini oxudu.”[3]

## Səliqə

***İmam Rza (ə) özünü bəzəyərmiş? Misal üçün: Sacın, üzün səliqə-sahmana salarmış? Ətirdən istifadə edərmiş? Bu barədə nə buyurardı?***

İmam Rza (ə) həmişə sadəliklə, səliqəni uyğunlaşdırıb. O həzrət, səliqəli sac düzümü ilə xoş ətirli olmağı peyğəmbərlərin əxlaqından bilirdi.[4] Öz saqqalına rəng vurub qaraldar[5], saqqalın, sacın həmişə darayardı,[6] həmişə ətirli olardı. Hədislərdə, Hindistan və Cin ovdı (ətirli bitki), müşk və gülabdan istifadə etdiyi qeyd olunub.[7] İmam Rza (ə) cəddinin həyat tərzinə işarə edərək buyurur: "İmam Zeynul-Abiddin (ə) paltar geyinərkən, ya mənzildən çıxarkən müşkdən istifadə edərdi."[8]

---

1. “Biharul-ənvar” c. 75 s. 349
2. “Furqan”-67
3. “ƏL Xisal” s. 55
4. “Tuful-uqul” s. 443
5. “Biharul-ənvar” c. 73 s. 100
6. “Biharul-ənvar” c. 73 s. 115
7. “Uyun əxbaru-Rza” c. 2 s. 179
8. “Məkarimul-əxlaq” s. 42

İmam Rza (ə) hamını ətirdən istifadə etməyə çağırar və buyurardı: "Heç kimə yaraşmaz ki, gündə ətirdən istifadə etməsin. Əgər imkanı olmasa, gün aşırı istifadə etsin, buna da imkanı olmayan, cümə günlərində mütləq ətirli olsun."[1]

## Təmizlik və paklıq

***İslam dini təmizliyə, paklığa böyük önəm verir. Bu barədə imam Rzanın (ə) sözünü bəyan edin?***

İslam dini təmizliyi imanın nişanələrindən sayır və təmizliyə, paklığa dair böyük önəm vermişdir. İlahi peyğəmbərlər, övliyalar təmizlikdə nümunə idilər. Belə ki, hədislərdə “Təmizlik peyğəmbərlərin əxlaqındandı" – söylənib.[2]

Bu mövzuda hədislərə nəzər salarkən, təmizliyin keyfiyyəti aşkar olur. İmam Rza (ə) buyurur: “Dırnaqlarınızı çərşənbə axşamında, gündüz vaxtı tutun, çərşənbə günü hamama gedin, qanalmanı (ehtiyac olarsa) cümə axşamı yerinə yetirin və cümə günündə ən gözəl ətirlə ətirlənin.”[3]

İmam Rzanın (ə) Yasir adlı xadimi deyir: "İmam Rza (ə) ayaqyoluna rahat ayaqqabı ilə daxil olardı."[4] Digər hədisdə “İmam Rzanın (ə) çöldə yerə tüpürdüyünü heç vaxt görmədik" – deyilir.[5] Ümumi gigiyena haqda imam Rza (ə) buyurub: “Kim istifadə olmuş su ilə çimərsə və cü-

---

1. “Xisal” c. 2 s. 392
2. “Tuful-uqul” s. 442
3. “Uyun əxbaru-Rza” c. 1 s. 279
4. “Məkarimul-əxlaq” s. 121
5. “Uyun əxbaru-Rza” c. 2 s. 184

zam xəstəliyinə yoluxarsa, özün təqsirli bilsin."[1] Bu hədis yoluxucu xəstəliklərə qarşı pəhriz etməyi göstərir.

İmam Rza (ə) ağzın gigiyenasına; dişlərin təmizliyinə, damağın sağlamlığına və dişlərin ağ qalmasına tövsiyələr edib.[2]

## Əylənmək

***Şadlığa, əyləncəyə imam Rzanın (ə) münasibəti nə olub?***

İnsanlar əylənməyə, şənlənməyə və şad olmağa böyük ehtiyac duyurlar, çünki belə halda həyat ləzzətli və şirin keçir. İmam Rza (ə) həyatın şirin keçməsinə işarə edərək buyurur: "Dünya ləzzətlərindən xoşbəxtliyiniz üçün istifadə edin, ürək arzularınızı halal yolla yerinə yetirin. Əylənmək, istirahət etmək dünyanızı idarə etməyə kömək olar və dünya işlərində sizi müvəffəq edər."[3]

Dini mədəniyyətdə insan həyatı ibadi, ictimai və xüsusi bəxşə bölünüb. İnsan xüsusi vaxtını halal ləzzətlərlə keçirərək – imam Rzanın (ə) söylədiyinə əsasən - pozitiv enerji alıb həyatının digər bəxşlərini gözəl şəkildə əncam verə bilir. Çünki bədən yorulmuş ruhu bərpa edib, ona yeni güc verə bilir.

İmam Rza (ə) insan fəaliyyətini dörd hissəyə bölərək, əylənməyin əhəmiyyətini vurğulayır: 1-Allah-tala ilə minacat, 2- dünya işləri 3- eyibləri hədiyyə edən, daxilən sizinlə bir olan dostların görüşü, 4- halal əyləncələrdən

1. "Əl-Kafi" c. 6 s. 503
2. "Biharul-ənvar" c. 59 s. 308
3. "Fiqhur-Rza" s. 337

ləzzət alıb, qeyd olunan ilk üç fəaliyyətə enerji almaq.[1]

İmam Rza (ə) əylənməyin eyiblərinə işarə edib buyurur: "Əylənərək hörmətinizi, mürüvvətinizi qoruyun və israfçılığa, ifrata yol verməyin." Bu sözdən aydın olur ki, dindar zahiri dünyaya bağlanmamalı, ani haram ləzzətlərdən özün qorumalıdır, çünki şərab, narkotik, qumar oyunları kimi əyləncələrin müvəqqəti ləzzəti, ruh düşkünlüyü yaradır. Bu növ əyləncələr insan ruhuna ziyan vurub, sağlam düşüncəni aradan aparır. İmam Rza (ə) buyurur ki, şərab içənin ağlı aradan getdiyi üçün, Allah-tala şərabı haram edib.[2] Bəyənilməyən əyləncə növləri haqda imam Rza (ə) buyurub: «Allah-tala bütün qumar (udub, uduzmaq) oyunlarını haram edib, onu murdar bilib.[3] *"Ey iman gətirənlər! Şərab da, qumar da , bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkiniz ki, bəlkə nicat tapasınız!"*[4]

## Səyahət və səfər

### *Səfər üçün hansı qayda qanunlar tövsiyə olunub?*

İslamda səfər və səyahət maddi mənfəət, dünya görüşün artması, ədəb, ibrət kimi faydalara malik olduğu üçün bəyənilmişdi.[5] Dini təlimlərdə səfərin mühüm xüsusiyyətləri, keyfiyyəti barədə tapşırıqlar verilmişdi. Qeyd edəcəyimiz səfər qaydaları imam Rzanın (ə) sözlərindən alınmışdır.

1. "Fiqhur-Rza" s. 337
2. "Uyun əxbaru-Rza" c. 2 s. 179
3. "Fiqhur-Rza" s. 284
4. "Maidə"-90
5. "Müstədrakul-vəsail: c. 8 s. 115

Yaxşı səfər yoldaşını seçmək. Üç xüsusiyyət yaxşı səfər yoldaşının əlamətləridir: Azuqəsindən bəxşış etmək, xoşxasiyyət olmaq və günah olmayan zarafatlar etmək.[1]

Səfərə çıxarkən dua və zikr etmək. Mənzildən səfərə çıxdığın zaman de: "Aməntu billah təvəkkəltu əlal-lah maşallah lə hovlə və lə qüvvətə illə billah." Bu duanı etdikdə müsafir, şeytanlarla üzbəüz gələrkən mələklər şeytanları qovub deyərlər: "Ona yolunuz bağlıdır, çünki o, Allahın adın çəkmiş, ona iman gətirmiş, təvəkkül etmiş və "Maşallah lə hovlə və lə qüvvətə illə billah demişdir"[2]

Əqıq qaşı ilə üzük taxmaq. Əqiq səfərdə baş verə bilən xətərləri uzaqlaşdırma təsirinə malikdir.[3]

Səfər üçün münasib zaman seçmək. Peyğəmbər (s) səfərə bazar ertəsi, cümə axşamı çıxardı.[4] O zaman kı falçıların əqidəsinə əks olaraq, ayın sonuncu çərşənbə günü səfərə çıxmaq yaxşıdır.[5]

Günah səfərindən çəkinmək. İbadi (ziyarət kimi) və ticarətçilik səfərlərindən fərqli olaraq, günah səfərində namaz tam şəkildə qılınır. Hədislərin birin də imam Rza (ə) zalımla görüş səfərini günah səfərindən hesab edir. İki kişi Xorasanda imam Rzadan (ə) səfər namazı barədə sual edərkən, imam onların birinə buyurdu ki, "Sən məni görməkdən ötrü gəldiyinə görə namazını qəsr6 qılmalısan." Digərinə isə buyurdu ki, "Sənin namazını tam qılmalısan, çünki səfərdən məqsədin zalım soltanın görüşü olub."[7]

---

1. "Uyun əxbaru-Rza" c. 2 s. 27
2. "Biharul-ənvar" c. 73 s. 240
3. "İddatud-dai" s. 129
4. "Əl Aman min əxtaril-əsfar vəl əzman" s. 32
5. "Mən La Yahzaruhul-fəqih" c. 2 s. 173
6. Səfərdə dörd rükətli namazlar qəsr olunur, yani iki rükət qılınır.
7. "Əl-vafi" c. 7 s. 179

## Yatmaq və yuxu yozumu

***Yatmaq barədə hansı tövsiyələr göstərilib? yuxunun yozması barədə hansı yol göstərilib?***

İlahi nemətlərindən də biri yuxudur. İnsan yuxusu düzgün şəkildə tənzimlənərsə, oyaq qalıb, fəaliyyət göstərmək ləzzət bəxş olar. İmam Rza (ə) buyurub: Yatmağın əsas təsiri və gücü beyinədir. Yuxu cismi də davamlı edib, ona yeni enerji verir.[1] İmam Rza (ə) yatmaq barədə bir necə tövsiyə edib.

1- Yatan da əvvəl sağ tərəf də[2] sonra istəsə, sol tərəf də yatsın və oyanarkən sağ tərəfdən dursun.[3]

2- Yatarkən "Ayətəl-kürsü" oxumaq. Bu ayəni oxuyan şəxs inşallah iflic olmaz.[4]

3- Yatarkən *"Həqiqətən, Allah göyləri və yeri zəval tapmasınlar deyə, tutub saxlayır. Əgər öz mehvərindən çıxsalar, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Doğurdan da, Allah həlimdir, bağışlayandır!"*[5] - ayəsini oxusa, heç vaxt ev başına uçmaz.[6]

4- Yuxu yozulduğu kimi baş verir. Peyğəmbərin (s) dövründə bir qadın yuxuda evinin sütunun uçulduğun görür. Peyğəmbərin (ə) yanına gəlib, yuxusun Ona danışır. Peyğəmbər (ə) buyurdu: "Ərin tez bir vaxtda qayıdıb sağ-salamat evdə gəzəcək." Bir neçə gün sonra qadının əri səfərdən qayıdıb, peyğəmbərin (s) yozumu gerçək oldu.

---

1. "Biharul-ənvar" c. 59 s. 316
2. "Müstədrakul-vəsail" c. 1 s. 330
3. "Biharul-ənvar" c. 59 s. 316
4. "Savabul-əmal" s. 105
5. "Fatir"-41
6. "Savabul-əmal" s. 152

Növbəti dəfə kişi səfərə çıxanda, qadın yenə yuxusunu təkrar şəkildə gördü, amma bu dəfə başqa bir şəxsdən yuxunun mənasını soruşdu. Qadına ərinin öləcəyini dedilər, bu xəbər peyğəmbərə (s) çatan da, O həzrət buyurdu ki, nə üçün qadının yuxusun yaxşı yozmadılar !?[1]

5- Dünən axşam Əli ibni Yəqtinin yaxınlarından birini, yuxuda iki gözünün arasında nurlu ağ xalla gördüm və onu imana, dindarlığa yozdum.[2]

## Münasib mənzil

***Peyğəmbərimizdən (s) insanların xoşbəxtliyinə səbəb ola bilən mənzil barədə hədis nəql olunub Bu haqda izah verin.***

Peyğəmbər (s) müsəlman üçün xoşbəxtliyin nişanələrindən birini, geniş evə, rahat miniyə və saleh həyat yoldaşı və övladlara sahib olmasın da görür.[3]

İmam Rza (ə)-da mənzilin genişliyinə işarə edərək buyurur: "Dünya ləzzəti evin genişliyində və dostların çoxluğundadır."[4] İmam xadimlərindən birinə ev alıb, buyurdu: "Evin darısqal olduğu üçün aldığım evə köç." Xadim atasının o evdə yaşadığını deyəndə, imam Rza (ə) buyurdu: "Əgər atan bilməyibsə, sən də ona oxşamalı deyilsən."[5]

---

1. "Əl-Kafi" c. 8 s. 335
2. "Biharul-ənvar" c. 58 s. 160
3. "Məkarimul-əxlaq" s. 125
4. "Müsnəd imam Rza" c. 2 s. 374
5. "Biharul-ənvar" c. 73 s. 153

## Sadə həyat tərzi

***İmam Rzanın (ə) həyat tərzi hansı şəkildə olub? İmamın sadə həyat tərzi ilə dəbdəbəli həyat tərzinə baxışı nə idi?***

İmamı Rzanın (ə) həyat tərzi həmişə sadə və iddiasız olub. İmam sadə, yüngül xörəklər yeyərdi. Mənzilində sadə və bəzən qalın paltar geyinərdi, amma ümumi məclislərə və camaat arasın da qalın paltarın üzərinə yumuşaq paltar geyinərdi.

Müəmmar bin Xəllad, imam Rzanın (ə) belə söylədiyini deyir: "And olsun Allaha! Əgər ümmətin xilafəti üzərim də olsa, qalın paltarlar geyinib, sadə xörəklər yeyərəm və rahatlığı tərk edib, çətinliyi seçərəm. Peyğəmbər (s) Əbuzərə nəsihət edərək buyurdu: Ey Əbuzər! Mən qalın paltarlar geyinib, yerdə əyləşib barmaqlarımı təmizləyirəm, ulağa həm palansız minirəm, həm də başqasını mindirirəm. Kim özün mənə bənzətməsə, məndən deyil. Ey Əbuzər! İndi ki belədir, qalın paltar geyin ki, qürur və təkəbbürlüyə düçar olmayasan."[1]

İbni Əbbad deyir: "İmam yayda həsir üzərində, qışda isə kilim üzərində əyləşərdi və ancaq bəzi ümumi məclislərdə özün bəzəyib, geyinib-kecinərdi."[2]

İmam Rza (ə) gözəl geyinərkən bəziləri Ona etiraz edərdilər və imam cavabında buyurardı: Yusuf həm özü, həm də, atası peyğəmbər olmasına baxmayaraq, Fironun məclisində ipək libasla əyləşərdi, amma bu bahalı paltarlar, dəbdəbəli məclislər onu məqamından salmazdır.[3]

---

1. "Məkarimul-əxlaq" s. 115
2. "Uyun əxbaru-Rza" c. 2 s. 187
3. "Məkarimul-əxlaq" s. 98

İmam Rza (ə) asketizmin və sufilərin yun paltar geyilməsinin əleyhinə olub, insanları sadə həyat tərzinə dəvət edib və həmişə peyğəmbərin (s) Əbuzərə nəsihətini xatırladıb.[1]

## Geyim

***İmam Rzanın (ə) sadə həyat tərzinin nəzərə alaraq, geyimin keyfiyyətində Ondan hansı örnəyi ala bilərik?***

İmam Rza (ə) buyurur ki, "Atam bir gün məndən gözəl geyim barəsində soruşdu. Dedim: imam Həsən (ə) geyimli-kecimli olardı, imam Sadiq (ə) təzə aldığı paltarı suya salıb (qurudub) sonra geyinərdi və mənə də təklif edib, "Səndə geyin əynini təzələ" – deyərdi. İmam Səccad (ə) 500 dirhəmə kürk kəftanları alıb geyinərdi, 50 dirhəmə mutrəfi[2] alıb qışda geyinərdi və yayda onu satıb pulun fəqirlərə paylayardı və bu ayəni oxuyardı: *("De! Allahın öz bəndələri üçün yaratdığı zinətləri və pak ruziləri kim haram etmişdir!?"[3])*"[4]

Hədislər bizə göstərir ki, müsəlmanlar yaxşı və münasib geyim seçməklə yanaşı, sadə həyat tərzini də apara bilərlər. İmam Rzanın (ə) xadimi Yasir deyir ki, bir gün imam özümüzə xəzdən çuxa və naxışlı parça almağımızı istədi. Dedim: «Hansı naxışlı parça alım?" İmam buyurdu: "Naxışlı parça necə olur ki ?» Dedim: "Pambığı olmayan naxışlı parça deyilənlərə görə haramdı." İmam buyurdu:

---

1. "Biharul-ənvar» c. 10 s. 352
2. Məxsus paltar növüdür
3. "Əraf"-32
4. "Əl-Kafi" c. 6 s. 451

“Sən pambığlı parça al, geyin.”[1]

Xadim Yasir deyir: İmam Rza (ə) paltarın geyinmək istəyən də, sağ tərəfdən geyinərdi və hər vaxt təzə paltarı geyinməmişdən öncə, bir qab su gətizdirib, suya 10 dəfə “Qədr” surəsi, 10 dəfə “İxlas” və 10 dəfə “Kafirun” surəsin oxuyub, suyun bir miqdarın paltara səpib buyurardı: “Kim paltarın geyinərkən bu cür edərsə, paltarın bir sapı belə qalarsa, geniş və rahat həyat yaşayar.”[2]

## Yeyib-içmək

***Yeyib-içməyin hansı ədəb qaydaları mövcuddur? imam Rza (ə) bu haqda nə buyurub?***

Yeməyin tərzi və növü insan sağlamlığında çox təsirlidir. Bu haqda İmam Rzadan (ə) olan qeydləri sizə təqdim edirik:

1- Yeməyə birinci yüngül qida növündən başla.[3]

2- Doymamış süfrədən çəkil.[4] “Pəhriz” deyərkən yeməmək yox, az yemək nəzərdə tutulur.[5]

3- Kim az yeyərsə, sağlamlığı daha çox və zehni daha aydın olar.[6]

4- Bax gör hansı qida sənə, mədəvə münasib, bədənivə qüvvəli, tez həzm olandısa onu süfrəyə hazır et.[7]

---

1. “Əl-Kafi” c. 6 s. 452
2. “Uyun əxbaru-Rza” c. 1 s. 315
3. “Biharul-ənvar” c. 59 s. 308
4. Yenə orada.
5. “Məaniul-əxbar” s. 238
6. “Biharul-ənvar” c. 63 s. 334
7. Yenə orada.

5- Iştahana uyğun; Yayda soyuq, qışda isti və qalan iki fəsildə orta xörəklərdən meyl et.[1]

6- Mən göyərti olmayan süfrədən yemərəm.[2]

7- Əgər xörək yediyiniz halda süfrədən qalxsam, sizdə qalxın ki, yeməkdən ayrılasız.[3]

8- Həmişə yeməkdən sonra beli üstə uzanıb, sağ ayağını, sol ayağın üstünə qoyub birəz istirahət et.[4]

9- Axşam xörəyin yeyin; bir tikə çörək olsa belə. Axşam yeməyi bədənə qüvvət verir, xüsusən yaşı 40-dan gecən adamlar axşam yeməyin yeməmiş yatmasın. Axşam yeməyi yuxunu şirin və ağız iyisin təravətli edir.[5]

---

1. "Biharul-ənvar" c. 59 s. 311
2. "Məkarimul-əxlaq" s. 176
3. "Biharul-ənvar" c. 71 s. 141
4. "Əl-Kafi" c. 6 s. 503
5. "Əl-Kafi" c. 6 s. 288

# Dördüncü fəsil: İnsanlara münasibət

## Gözəl rəftar

***İmamın başqaları ilə rəftarı necə olub? O həzrətin gözəl əxlaqından bəyan edin.***

İmam Rzanın (ə) gözə[1] rəftarı, əxlaqı insanların qəlbinə nüfuz edirdi.1 Həmişə təbəssümlü, xoşsifət olardı. Buyurardı: "İsa peyğəmbər həm gülərdi, həm də ağlayardı, lakin Yəhyə peyğəmbər yalnız ağlayardı. Bilin ki, İsanın rəftarı daha gözəldir."[2]

İmam gözəl rəftarı ilə tanınıb, dillərdə əzbər olmuşdur. İbrahim bin Abbas deyir: "İmam Rza (ə) heç vaxt kiməsə tikanlı söz deməz və başqasının sözün kəsməzdir, kömək edə biləcəyi halda, heç vaxt köməyin əsirgəməzdir. Başqasının yanında oturarkən ayağın uzatmazdır və belin söykəməzdi, heç vaxt xadimlərinə söyməz, pis söz deməzdi, yerə tüpürməzdi və qəhqəhə ilə gülməzdi, gülüşü təbəssümlə olardı."[3]

---

1. "Siyəri əlamun-nubəla" c. 1 s. 121
2. "Əl-Kafi" c. 2 s. 666
3. "Kəşful-ğummə" c. 2 s. 316

Camaat rahat imamın görüşünə düşə bilirdilər və sualların imama verirdilər, çünki imam namazdan və səcdəsindən sonra əyləşib camaatın müşküllərini dinləyib həll edirdi.[1]

İmam Rza (ə) insanlarla sakit və mülayimcə söhbət edərdi[2] və başqası haqda nalayiq söz dilinə gətirməzdi.[3] Onunla söhbət edəni axıra kimi dinləyərdi, sözün kəsməzdir.[4] İmam əshabələrinə buyurardı: "Üzbəüz danışdığınız şəxsi künyəsi ilə xitab edin, qaib olan şəxsin isə haqqın da danışarkən adı ilə çağırın.[5]

İmam Rza (ə) xadimləri ilə mehribançılıq və mülayimcəsinə davranardı, evdə tək olduq da kiçikdən, böyüklə hamını ətrafına yığıb, onlarla söhbət edərdi. İmama xörək gətirən də O, bütün xadimləri, hətta gözətçiləri belə, süfrəsinə dəvət edib, onlarla birgə xörəyin meyl edərdi.

Bəlxdən olan bir şəxs belə nəql edir: "Xorasana səfərdə imam Rza (ə) ilə birlikdə idim. Süfrə açılanda imam Rza (ə) bütün xidmətçiləri, hətta qara dəriləri belə, süfrəyə dəvət edib birgə nahar etdilər. İmama ərz etdim ki, bunlar başqa süfrədə əyləşsələr daha yaxşı olmaz !? Buyurdu: "Sakit ol! Hamının Allahı bir, atası anası da birdir, üstünlüyümüz əməllərimizlədir."[6]

İmam (ə) möminlərin biri birini ziyarət etməsinə çox təkid edərdi və buyurardı ki, səxavətli başqaların yeməyindən yeyər

1. "Uyun əxbaru-Rza" c. 2 s. 179
2. Yenə orada.
3. "Uyun əxbaru-Rza" c. 2 s. 184
4. Yenə orada.
5. "Əl-Kafi" c. 2 s. 671
6. "Əl-Kafi" c. 8 s. 230

ki, onun da süfrəsinə gələn olsun, amma xəsis digərlərinə süfrə açmasın deyə heç kəsin süfrəsindən yeməz.[1]

İmam Rza (ə) qonaqpərvər olduğu üçün, gələn qonağa çox hörmət göstərərmiş. Günlərin birində imamın axşam qonağı var idi. Söhbətin ortasında çıraq xarab olanda, qonaq qalxıb çırağı düzəltmək istəyir, imam narahat olub icazə verməyərək çırağı özü düzəldir və “Biz qonağımızın əziyyətinə razı olmarıq” – deyir.[2]

İmam Rza (ə) çox təvazökar olub. Günlərin birində imamı tanımayan bir şəxs, hamamda çimərkən imamdan ona kisə vurmasını istəyir. İmam heç bir söz demədən, kisə vurmağa başlayır. Hamamda olanlar imamı o şəxsə tanıtdırırlar, həmən şəxs xəcalət çəkib imamdan üzrxahlıq edib durmaq istəyir, amma imam ona təskinlik verib, kisə vurmağın davam edir.[3]

İmam Rza (ə) camaatla müaşirətə dəvət etməsi ilə yanaşı, şər və böhtançı insanlardan uzaqlaşmağa tövsiyə edərdi. Buyurardı: “Nə vaxt bir şəxsin haqqı inkar etməsini, ya yalan danışmasını, ya haqq əhlinə töhmət vurmasını görsən, onun yanından qalx və bir daha onunla əyləşmə.[4]

## Xeyriyyəçilik və yardım

***İmam Rzanın (ə) ehtiyaclı və fəqir olanlara köməyi necə olub? bəzi nümunələri misal gətirin.***

Hər fərdin cəmiyyətlə əsas əlaqəsi insanlara maddi və mənəvi yardım göstərməsindədir. İnsan Allahın ona verdi-

1. “Əl-Kafi” c. 4 s. 41
2. “Əl-Kafi” c. 6 s. 283
3. “Mənaqib” c. 4 s. 362
4. “Əyaşinin təfsiri” c. 1 s. 281

yi ruzidən Allah yolunda xərcləməlidir. İmam Rza (ə) imkanı olan şəraitdə, heç vaxt yardımdan imtina etməzdir.[1]

İmamın çoxlu xeyriyyəçiliyi olub və kasıblara gizlində yardım göstərərdi. Əksər hallarda bu işi gecə edərdi ki, onu görənlər xəcalətli olmasınlar.[2]

Günlərin birin də, qərib bir şəxs imama yaxınlaşıb, salam verib dedi: "Mən sizi və əcdadlarınızı sevənlərdənəm, həcdən gəlirəm, pulum yolda qurtarıb, imkanınız olsa mənə bir miqdar pul verərdiz ki, vətənimə qayıda bilim və orda verdiyiniz pulu sizin adınızdan kasıbın birinə sədəqə verərəm, vətənimdə imkanım yaxşıdır." İmam ayağa qalxıb başqa otağa gedib 200 dinarı hazırlayıb otaqdan kişini səslədi. Kişi otağa yaxınlaşan da, imam otağın qapısından əlin uzadıb buyurdu: "Bu 200 dinarı al, yol xərci et və ailənə lazım olan hədiyyələri də al, şəhərinə qayıdanda verdiyim pulun əvəzi olaraq sədəqə vermək lazım deyil". O, pulu alıb getdi. Gedəndən sonra, imam otaqdan çıxıb öz yerinə qayıtdı. İmamdan sual etdilər ki, nə üçün pulu verən də, özün qapı arxasında gizlətdi? İmam buyurdu: "Məndən pulu alan da surətində xəcaləti müşahidə etmək istəmədim. Məgər eşitməmisiniz ki, peyğəmbər (s) buyurub: Xeyir əməlini gizlədən kəsin bir əməli 70-ə bərabərdir, aşkarda pis əməllər edən isə rüsvay olacaq, amma pis əməlin gizlində edərsə, Allah-tala onu bağışlayar."[3]

İmam Rzanın (ə) sonsuz həddə xeyriyyəçiliyi olub. O həzrət süfrəsində yeməyə başlamamış, fəqirlərin payın ayırarmış. Hədislərin birin də nəql olunur ki, imam Rza (ə) hər dəfə süfrəyə əyləşən də, əvvəl süfrədə olan yeməklərdən bir miqdar məxsus qaba yığıb, fəqirlərə pay-

1. "Uyun əxbaru-Rza" c. 2 s. 184
2. "Kəşful-ğummə" c. 2 s. 316
3. "Əl-Kafi" c. 4 s. 24

lamağa göstəriş verib sonra yeməyə başlayardı. İmam bu işi edərkən *"Lakin o, əqəbəni (maneəni) keçə bilmədi"* - ayəsini oxuyub buyurardı: "Allah-tala möminlərin qul alıb, azad etmək qüdrətin də olmadıqlarını bildiyi üçün fəqirlərə təam verməyi, qul azad olmasına bərabər hesab edib və bu əməllə bəndələrinə behiştə yol açıb."[1]

İmam Rza (ə) ehtiyaclı olanların problemlərinin həllində bütün imkanlarından istifadə edərdi. Bir kişi imamla rastlaşıb, "Mənə mərdliyin qədər bəxşış et"-dedi. İmam, "O qədər yoxumdu"- dedi. Kişi dedi: Onda öz mərdliyim qədər ver. İmam, "Onu edə bilərəm" deyib, xadimə 200 dinar verməsini əmr etdi.[2]

Fəzl bin Səhl imamın bütün malını Allah yolunda xərcləməsinə irad tutan da, imam buyurdu: "Savabı, fəziləti olan əməli, heç vaxt ziyan bilmə."[3]

İmam Rza (ə) Xorasanda olduğu zaman Ərəfə günü bütün sərvətin camaata bağışlayır. Bunu görən Fəzl bin Səhl deyir: "Sizin bu əməliniz ziyandır." İmam buyurdu: "Xeyir, belə deyil, əksinə bu əməl bir fürsətdir və çoxlu savabı var. Əgər mal vasitəsi ilə insana savab, əcr yetişərsə, onu heç vaxt ziyan bilmə."[4]

## Yaxşılarla, pislər

***Həyatımızda saleh və pis insanları tanıya bilərikmi?***

Bu haqda imam Rzadan (ə) bizə iki bəyan çatıb:

1. "Əl-Kafi" c. 4 s. 52
2. "Biharul-ənvar" c. 73 s. 115
3. "Müstədrakul-vəsail" c. 8 s. 115
4. "Mənaqib" c. 4 s. 362

1- İmam Rzadan (ə) ən saleh bəndələrin kimlər olduğu haqda sual etdilər. İmam buyurdu: «Saleh bəndələr xeyir iş görəndə sevinən, pis iş görəndə bağışlanma diləyən, onlara bəxşiş olunan da, təşəkkür edən, bəlada səbirli və, əsəbində də güzəştli olan şəxslərdir."[1]

2- Əli bin Şueyb deyir: İmam Rza (ə) mənə buyurdu: "Ey Əli ! Kimin həyatı daha yaxşıdır? Dedim: "Ağam, Sən məndən daha yaxşısın bilərsən." İmam buyurdu: "O kəs ki, həyatı sahəsində digərləri özlərinə yaxşı həyat qura bilsinlər." İmam yenə məndən sual etdi ki, hansı şəxsin həyatı daha pisdir? Dedim: "Siz, məndən daha yaxşısın bilərsiz." İmam buyurdu: "O kəs ki, həyatı sahəsində digəri özünə həyat qura bilməsin. Ey Əli! Nemətlərdən düz istifadə et, çünki gəlib-gedəndir. Əgər getsə, bir daha qayıtmaz."[2]

## İnsanların hüququ

***Məsumların (ə) insan hüququna riayət etməsini dəfələrlə eşitmişik, İmam Rzanın (ə) bu haqda rəftarı necə olub?***

İmam Rzanın (ə) ictimai rəftarı ciddi şəkildə insanların hüququna riayət və onu qorumaq əsasında tənzimlənmişdir. İşçinin zəhmət haqqını müəyyən etməsi, vaxtında ödənilməsi imamın əsas prinsiplərindəndir.

Suleyman Cəfəri nəql edir: "Bəzi işləri yerinə yetirməkdən ötrü, imamın xidmətində idim. İşim qurtardığı üçün, getməyə icazə istədim. İmam axşam onlar da qalmağımı istədi. Qürub vaxtı idı, imamla birgə mənzilinə get-

1. "Tuful-uqul" s. 445
2. "Tuful-uqul" s. 448

dik. İmamın xidmətçiləri bənnalıqla məşğul idilər, imam onların arasın da özgə şəxsi görəndə, onun kim olduğunu soruşdu. Dedilər bizə kömək edir və axırda zəhmət haqqın verəcəyik. İmam buyurdu: "Zəhmət haqqın müəyyən etmisiz ?" Dedilər: "Xeyir, nə versək razılaşacaq." İmam bu sözü eşidəndə çox narahat oldu. Mən, O həzrətə, "Sizə qurban, özünüzü narahat etməyin"-dedim. İmam buyurdu: "Bunlara dəfələrlə tapşırmışam ki, müqavilə bağlamamış və zəhmət haqqın təyin etməmiş işçi qəbul etməsinlər. Müqaviləsiz və haqqı təyin olmamış işçi işləsə, zəhmət haqqın üç bərabər versən belə, zəhmət haqqının az verildiyin güman edəcək, amma müqavilə bağladıq da, qərara uyğun zəhmət haqqın versən, müqaviləyə əməl olduğuna görə səndən razı qalacaq, bu anda ona təyin olunmuş zəhmət haqqından birəz də olsa belə artıq versən, artıq verdiyini başa düşüb sənə minnətdarlığın bildirəcək."[1]

## Zarafat və şadlıq

***İmam Rzanın (ə) həyat tərzində yumor hansı yeri tutur? başqaları ilə zarafatın həddi nədir?***

Xoş rəftar, gözəl əxlaq digərlərin şadlığına səbəb olarsa, insanı Allah və peyğəmbər (s) yanında sevimli edir. Çünki peyğəmbərimiz (s) buyurub: "Kim mömini sevindirərsə, məni də sevindirmiş kimidir, məni sevindirən isə Allahı sevindirmişdir."[2]

Zarafatcıl olmaq şadlığa səbəblərdən biridir və dindarların xüsusiyyətlərindən sayılıb.[3] Əziz islam peyğəmbərin (s) əxlaqın nəzərə alarkən, Onun gülər üzlüyü, müla-

1. "Əl-Kafi" c. 5 s. 288
2. "Əl-Kafi" c. 2 s. 188
3. "Tuful-uqul" s. 49

yim xasiyyəti və xoş əxlaqı önə gəlir. Peyğəmbər (s) səhabələrinə şad əhval-ruhiyyəsi bağışlamasından ötrü onlarla zarafat edərdi və bununla çətinliklərdən problemlərdən əmələ gələn stressi aradan aparırdı.

Müəmmar bin Xəllad deyir: İmam Rzaya (ə) buyurdum: "Canım sənə fəda! Bəzən dostlarla əyləşərkən, söhbət edib, zarafatlaşıb gülürük." İmam buyurdu: "Bir şey olmasa heç bir eybi yoxdur." Mənə aydın oldu ki, imamın "Bir şey olmasa" sözündən məqsədi söyüş və nalayiq sözlər idi. Sözündən sonra imam Rza (ə) buyurdu: «Bədəvi ərəblərdən biri həmişə səhradan gələn də peyğəmbərə (s) hədiyyə gətirərdi. Peyğəmbər yerindən qalxmamış ərəb, "Ey Allahın elçisi ! Xahiş edirəm hədiyyənin pulun ver"-deyərdi. Peyğəmbər (s) ərəbin sözünə gülərdi. Sonralar peyğəmbər (s) hər vaxt qəmli olan da buyurardı: "O, ərəb kişi haradadır? Kaş burda olub bizi güldürərdi".[1]

Zarafatlarda həddi aşmamaq lazımdır. Bu səbəbdən qeyd etdiyimiz kimi imam Rza (ə) qəhqəhə ilə gülməzdir və çox vaxt gülüşü təbəssümlə olardı.[2] Yumorun hədd-hüdudu yalan, təhqir, söyüş kimi, Allah-talanın haram buyurduğu qırmızı xətlərdi.

## Xəstəni ziyarət

### *Nə üçün məsumlar (ə) xəstəni ziyarət etməyi tapşırıblar?*

Xəstəyə hörmət və onu ziyarət etmək, İslam dininin önəm verdiyi və möminlərin hüququ kimi tanıdı-

1. "Əl-Kafi" c. 2 s. 663
2. "Uyun əxbaru-Rza" c. 2 s. 184

ğı bir məsələdir.[1] İmam Rza (ə) buyurub: Sizdən biriniz xəstələnsəniz mömin qardaşlarınıza xəbər verin, sizi ziyarət edib, haqqınızda dua etsinlər, çünki ən azından onların birinin duası qəbul olar.[2]

## Valideynlərə münasibət

***Valideynlərə hörmət və gözəl davranış üstün əməllərdəndir. Onlarla hansı şəkildə rəftar olunmasını bəyan edin.***

Demək olar ki, İslam dinində heç bir mövzu valideynlər mövzusu kimi əhəmiyyətli deyil. Belə ki, Allah-tala özünə pərəstişdən sonra valideynlərə lazım olan hörməti vacib buyurmuşdur və Allaha şərik qoşmağı böyük günah saydığı kimi, ağvalideynliyi də böyük günahlardan hesab etmişdir.[3]

Valideyninlə münasibət imam Rza (ə) mədəniyyətində aşağıda qeyd etdiyimiz sürətdədir:

1- Ata, ana ilə gözəl davranış və onlardan itaət etmək, müşrik olsalar belə vacibdir, bu şərtlə ki, onlara itaət, Allahın itaətsizdiyinə səbəb olmasın. Müəmmar bin Xəllad imam Rzaya (ə) deyir: “Əgər ata, ana haqq məzhəbi tanımasalar, onlara dua edək ?” İmam buyurdu: “Onlara dua et, əvəzlərinə sədəqə ver və əgər, sağ olub haqq məzhəbi tanımasalar, onlara güzəşt elə, çünki peyğəmbər (s), “Allah-tala məni rəhmət olaraq göndərmişdir, əzab olaraq

1. “Rovzatul-vaizin” c. 2 s. 292
2. “Ləvamiu sahibqərani” c. 2 s. 152
3. “Ənam’-151

yox"-deyib."[1]

2- Allah-tala üç şeylə yanaşı, üç şeyə əmr edib. Özünə şükür etməklə yanaşı, valideynlərə də təşəkkür etməyi vacib edib. Valideynlərinə təşəkkür etməyən, Allah-talaya da şükür etməmişdir.[2]

3- İmam Rza (ə) ağvalideynlik barədə xəbərdarlıq edib, buyurardı: "Allah-tala ağvalideynliyi, onların hörmətini əziz tutması üçün, nemətin naşükürlüyü və zəhmətin zay olmaması səbəbinə haram etmişdir. Əgər ağvalideynlik haram olmasa idi, nəsil kəsilərdi, ata, ananın hörməti aradan gedərdi, valideynlərin övladlarına qarşı etinasızlığı baş verərdi və övladlar da valideynlərə yaxşılıq etməzdi."[3]



## Həyat yoldaşını seçmək

### *İmam Rza (ə) həyat yoldaşını seçmək üçün hansı meyar təqdim edib?*

Həyat yoldaşını seçmək zəruri işdir və əgər bu işdə səhlənkarlıq, ya baş verərsə, gələcək də böyük peşmançılıq baş verə bilər. Həyat yoldaşının seçiminə gəldikdə, onun inanclı olması ilə yanaşı, gözəl əxlaqı və tərbiyəsi çox önəmlidir. Gözəl əxlaq, fəzilətli xüsusiyyətlər müştərək həyatın möhkəmliyində böyük rol oynayır. Şübhəsiz ki, rəzillik, hörmətsizlik də ailə də məhəbbət çırağının sönməsinə böyük təsir edir.

Hüseyn bin Vasiti imam Rzaya (ə) yazdığı namə barədə deyir: "İmam Rzaya (ə) məktub yazdım ki, qohumlarımdan biri qızıma elçi gəlib, amma oğlan bədəxlaqdır. Cava-

1. "Uyun əxbaru-Rza' c. 2 s. 124
2. "Əl-Kafi" c. 2 s. 59
3. 'Biharul-ənvar" c. 71 s. 68

bın da imam Rza (ə), “Bədəxlaqdırsa qızını ona vermə”- yazdı.”[1]

## Həyat yoldaşı ilə davranış

### *İmam Rza (ə) həyat yoldaşı ilə hansı rəftarı tövsiyə edib?*

Ər-arvad arasındakı bir-birinə qarşı bağlılıq və emosiya həyatın gözəlliyi, təravəti üçün ilahi bir lütf hesab olunur. İmam Rzanın (ə) tarixi bir hadisə barədəki hədisi üzərində düşünməklə bu əlaqənin əhəmiyyətini anlamaq olar. O həzrət belə buyururdu: Bir gün Peyğəmbər (s) Bintu Cəhişə belə buyurdu: “Dayın Həmzə öldürüldü”. O isə “İnna lillah və inna iləyhi raciun”- ayəsini dilinə gətirərək dedi: “Onu Allah yolunda hesab edirəm”. Peyğəmbər (s) yenə buyurdu: “Qardaşın öldürüldü”. O isə yenə “İnna lillah və inna ileyhi raciun”- ayəsini oxuyaraq dedi: “Onu Allaha tapşırıram”. Peyğəmbər (s) üçüncü dəfə isə belə buyurdu: “Həyat yoldaşın öldürüldü”. Bu zaman Bintu Cəhiş əllərini üzünə qoyaraq ağlamağa başladı. Peyğəmbər (s) isə bu səhnəni gördükdə belə buyurdu: “Bir qadına görə kimsə onun əri qədər əhəmiyyətli ola bilməz”.[2]

İmam Rzadan (ə) qadın-kişi əlaqəsi, bəzənməsi barədə çoxsaylı kəlamlar nəql edilmişdi. Biz onlardan ikisini burada qeyd etməklə kifayətlənirik:

1. Ən gözəl fayda odur ki, insanın, üzünə baxarkən sevincinə səbəb olan, yanında olmayanda isə malını, ailəsini, namusunu qoruyan bir həyat yoldaşı olsun.[3]

---

1. “Əl-Kafi” c. 5 s. 563
2. ““Əl-Kafi””, c. 5, s. 506.
3. Vəsailuş-Şiə, c. 20, s. 40.

2. İmam Rza (ə) qadının səliqəli, bəzəkli olmasını təkidlə vurğulayaraq belə buyurardı: "Səliqəli (bəzəkli) olmaq qadının iffətini artırar".[1]

## Ailə ilə davranış

***İmamın (ə) həyat tərzində qohumlarla, ailə üzvləri ilə ünsiyyəti necə qurulub?***

Ailə və qohumlarla səmimi əlaqə Allaha yaxınlaşmaq, mənəvi inkişaf etmək üçün önəmli yollardan biri hesab olunur.[2] Necə ki imam Rza (ə) buyurur: "Allah-taala ilahi təqvaya və sileyi-rəhim etməyə əmr edib. Elə isə kimsə sileyi-rəhim etməsə, ilahi təqvaya riayət etməmiş olar".[3] O həzrət ailə daxilində səliqəli, bəzəkli olmaqla yanaşı, kişinin də səliqəli olmasını təkidlə vurğulayardı.[4] İmkanı olanlara öz ailəsini rifah, rahatlıq içərisində saxlamağı vacib hesab edirdi.[5] O həzrət belə buyururdu: "Yaxşı olar ki, kişi iqtisadi baxımdan öz ailəsinə daha çox diqqət ayırsın ki, onun ölümünü arzulamasınlar".[6]

İmam Rza (ə) təkidlə deyərdi: "İnsanın əhli-əyalı nemət əsiridir. Yaxşı olar ki, Allah kiməsə bol nemət verəndə, ailə əsirlərinin (üzvlərinin) rifahını da artırsın".[7]

O həzrət ailə ilə gözəl davranmağı və xoşəxlaq olmağı tövsiyə edərdi: "Qiyamət günü mənə o adam daha yaxın olacaq ki, dünyada daha xoşəxlaqlı olub, öz ailəsinə qarşı

1. """Əl-Kafi""", c. 5, s. 567.
2. Xisal, s. 156; bax: Cavadi Amuli, məfatuhul-Həyat, s. 209-218.
3. """Əl-Kafi""", c. 2, s. 151.
4. Biharul-Ənvar, c. 73, s. 100.
5. Vəsailuş-Şiə, c. 15, s. 249.
6. Yenə orada.
7. "Əl-Kafi", c. 4, s. 12.

daha xeyirxah olmuş olsun”.[1]





## Övladla davranış

### *İmam (ə) övladlar barəsində nə buyurub?*

İmam Rzanın (ə) övlad sevgisində gözəl nüans vardır ki, o həzrətin dostlarından birinin halında qeyd edilmişdi.[2] Bu hədis üzərində düşünməklə bir neçə maraqlı nüansı sizə təqdim edirik:

1. Qız və oğlan uşaqları üçün əqiqə hazırlamaq, ad qoymaq, körpənin saçlarını yeddi günlüyündə qırxmaq, saçların çəkisi qədər qızıl və ya gümüş sədəqə vermək- bunların hamısı lazımdır. Habelə, oğlan uşaqlarının sünnət etdirilməsi vacibdir.[3]

2. Lazımi qədər maddi gücü olan adamlar öz xanımını və övladını rifah içərisində yaşatmalıdırlar.[4]

3. Övladını vurma, onu ədəbləndirmək üçün ondan küs, amma diqqətli ol ki, uzun sürməsin və bacardığın qədər tez barış.[5]

4. İmam Rza (ə) Allah elçisindən (s) onun belə buyurduğunu nəql edir: “Özümdən sonra adət olaraq qalması üçün beş şeyi ömrümün axırına qədər tərk etməyəcəm ... Beşinci: uşaqlara salam vermək”.[6]

5. İmam Rzadan (ə) öz uşağını namaz qılmağa məcbur

1. Vəsailuş-Şiə, c. 12, s. 153.

2. Kulsum ibn İmran imam belə dedi: “Sən uşaqları sevirsən. Elə isə Allahdan sənə övlad verməsini dua et”. İsbatul-Vəsiyyə, s. 217.

3. Uyunu əxbarir-Ruza, c. 2, s. 123.

4. Səhifətur-Riza, Cavad Qəyyumi, s. 403.

5. Biharul-Ənvar, c. 23, s. 114.

6. İləluş-Şərai, s. 54.

edən bir şəxs barədə soruşdular və dedilər ki, bu uşaq bəzən namazı tərk edir. İmam isə "O oğlanın neçə yaşı var?"- deyə soruşdu. Onlar isə səkkiz yaşı olduğunu dedilər. Bu zaman imam təəccüblə buyurdu: "Subhanəllah! Səkkiz yaşı var və namazı tərk edir?!". Dedilər ki, bəli, uşaqdır. Bəzən yorulur və narahat olur. İmam isə belə buyurdu: "Ona necə rahatdırsa, elə namazını qılsın".[1]

6. İmam Rza (ə) təkid edirdi ki, övlad üçün münasib bir ad seçilməlidir. Məsələn, o həzrət belə buyurardı: "O evdə ki, Məhəmməd adı var, o evin əhli xeyirlə sübhün açar və gecələyər".[2]

## Məmurlarla davranış

***Hər hansı dövlət məmurunun, idarə rəisinin ən mühüm vəzifəsi nədən ibarətdir?***

Cəmiyyətin idarəçiləri dünyapərəstlik, sərvət toplamaq və şöhrət qazanmaq məqsədi ilə vəzifəyə təyin edilməyiblər. Onların bu məqamdakı vəzifələri insanlara xidmət etmək, əl tutmaq və zülmü aradan qaldırmaqdır.

İmam Rza (ə) belə buyurardı: "İbrahimin səhifələrində deyilirdi ki, ey məğrur padşah, Mən səni saray tikmək, dünya qurmaq üçün seçməmişəm, əksinə, səni seçmişəm ki, məzlum kəsin duasını Məndən geri qaytarasan, baxmayaraq ki, Mən o duanı kafirdən də olsa belə, qəbul edərəm".[3]

Həsən ibn Hüseyn Ənbari imam Rzadan (ə) belə nəql edir: Soltanın yanında işləmək barədə imam Rzaya (ə) on

1. Vəsailuş-Şiə, c. 4, s. 20.

2. Biharul-Ənvar, c. 101, s. 131.

3. Yəqubi tarixi, c. 2, s. 472.

dörd il idi, məktub yazırdım. Yazdığım sonuncu məktubda izah etdim ki, mən sizə qarşı daşıdığım sevgi əlaqəsindən qorxuram, ona görə ki, soltan qayıdıb mənə ona xidmət etməyi, dövlət işini qəbul etmədiyimə görə, "Sən rafizisən" -deyə bilər.

İmam Rza (ə) isə məktubun cavabında belə yazdı: "Məktubun mənə çatdı və anladım ki, sən öz canından qorxursan. Əgər hansısa bir işi qəbul edəndə, Peyğəmbərin buyurduğu kimi, rəftar edəcəyini və həmkarlarının, katiblərinin səninlə həməqidə olduğunu bilirsənsə və pul əldə edərkən yoxsul mömin qardaşlarınla eyni durumda yaşayacaqsansa, onlara bənzər bir həyat sürəcəksənsə, onda bu işi et. Əks təqdirdə, etmə".[1]

## Kollektiv həyat nizamnaməsi

***Ictimai həyatımızın sağlam olması üçün imam Rza (ə) hansı əməlləri tövsiyə edib?***

İmam Rzadan (ə) öz dostlarına yadigar qalan gözəl və mühüm mesajlardan biri də Əbdüləzim Həsəninin nəql etdiyi mesajdır.2 Bir gün o həzrət bir neçə maraqlı sözü ona

1. ""Əl-Kafi"", c. 3, s. 111.

2. Bəziləri hesab edirlər ki, Əbdüləzim Həsəni öz həyatında imam Rzanı (ə) görməmişdir. Onların fikirincə, adıkeçən hədis mübahisəlidir və ya hədisin sənədində "Əbul-Həsən ər-Riza" dedikdə, "Üçüncü Əbul-Həsən", yəni imam Hadi (ə) nəzərdə tutulur. Əsas kimi də onu göstərirlər ki, "ər-Riza" sözü artıqdır, çünki ravilər və ya kitabı nüsxələyənlər onu səhvən qeyd ediblər. Ancaq Əbdüləzim Həsəninin ustadlarından birinin Hişam ibn Həkəm olduğunu və bu şəxsiyyətin imam Rzanın (ə) şəhadətindən təqribən beş il qabaq dünyasını dəyişdiyini mühüm bir fakt kimi nəzərə alsaq, o zaman bu, müddəamızın lehinə dəlil hesab olunar və nəticədə adıkeçən hədis barədəki irad öz gücünü itirər. Baxmayaraq ki, Əbdüləzim Həsəninin Əbutalib barədə imam Rza ilə məktublaşmasını bildirən başqa bir hədis də vardır. Bu da müddəamızın lehinə başqa bir şahiddir. Halbuki tənqidçilər bu barədə nəsə deməyiblər.

öyrətdi və ona bunu şiələrə, dostlara çatdırmasını tapşırdı. Kollektiv həyat nizamnaməsi adlandırıla bilən bu mesaj aşağıdakı kimidir:

“Ey Əbdüləzim, məndən dostlarıma salam çatdır və onlara şeytanı özlərinə hakim etməməyi söylə. Onlara doğru danışmağı, əmanəti öz sahibinə qaytarmağı, özlərinə aid olmayan şeyləri tərk edib onlar barədə mübahisə etməməyi, bir-birlərinin yanına getməyi və ziyarət etməyi əmr et. Çünki bütün bunlar mənə yaxınlaşmağa səbəb olar. Onlar özlərini bir-birlərini qarşı düşmənçiliklə məşğul etməsinlər, çünki mən özümlə əhd bağlamışam ki, kimsə bunu edərsə və dostlarımdan birini qəzəbləndirərsə, Allaha onu dünyada şiddətli əzabla cəzalandırması üçün dua edərəm. Belə bir adam isə axirətdə ziyana uğrayanlardan olar. Onlara bildir ki, Allaha şərik qoşan, Onun dostlarından birini incidən və ya ona qarşı qəlbində kin bəsləyən adamlar istisna olmaqla Allah yaxşılıq edənləri bağışlamış, günahkarları günahındansa keçmişdir. Allah onları, öz işlərindən geri dönməyənə qədər, bağışlamaz. Əgər qayıtsalar, bağışlanarlar. Əks təqdirdə, iman ruhu onların qəlbindən alınar və Allahın dostluğundan çıxarılarlar. Bizim dostluğumuzda da onlar üçün bir nəsib olmaz. Mən bütün bunlardan Allaha sığınıram”.[1]

---

1. əl-İxtisas, s. 247; Biharul-Ənvar, c. 71, s. 230.

# Mənbələr


Qurani Kərim
Nəhcül-Bəlağə
İbni Tavus "Əl Aman min əxtaril-əsfar vəl əzman"
İbni Tavus "Muhasibətun-nəfs"
İbni Tavus "Məhcud-dəavat və Mənhacul-ibadat"
İbni Fəttal "Rövzətul-vaizin"
İbni Fəhdi Hilli "İddətud-dai və nicahus-sai"
İrbili "Kəşful-ğummə fi mərifətil-əimmə"
İmam Sadiqə mənsub "Misbahuş-şəriə"
Seyid Əmin Amuli "Əyanuş-şiə"
Cəlaləddin Rumi "Məsnəvi mənəvi"
İbni Şöbə əl-Hərrani «Tuhəf əl-Uqul"
Əllamə Məclis "Biharul-ənvar"
Şeyx Saduq «Uyun əxbari-Rza"
Şeyx Səduq «Xisal"
Şeyx Səduq "Kəşful-ğummə"
Şeyx Kuleyni «Əl-kafi"
Təbərsi "Məkarimul-əxlaq"
İmam Rzaya (ə) mənsub «Fiqhur-Rza"
Muhəddis Nuri "Müstədrakul-vəsail"
Cavad Qəyyumi " Səhifətur-Riza"
Yəqubi tarixi
Şeyx Mufid «Əl-İxtisas"
"Əddatud-dai"
Şeyx Səduq «Mən La Yahzaruhul-fəqih"
Hilli ibni Mutəhhər "Ədadul-qəviyyə"
Feyz Kaşani "Əl-vafi"

Ətaridi «Müsnəd imam Rza”
Zəhəbi “Siyəri əlamun-nubəla”
“Mənaqib”
Şeyx Mufid «Amali Mufid”
Mürtəza Mütəhhəri “Sire-ye nəbəvi”
Xandəmir “Həbibus-Siyər tarixi”
ŞeyxTusi “Təhzibul-Əhkam”
İbn Tavus “Cəmalul-Usbu”
Əllamə Təbatəbai “Əl-mizan fi təfsirul-Quran”
Məkarim Şirazi “Təfsiri Nümunə”
Məhəmməd ibni Məsud Əyyaşi “Təfsiri Əyyaşi”